Dünya Gənc Türk Yazarlar Birliyi
www.dgtyb.org, www.bizimyazi.com

ŞEİR ÇƏLƏNGİ

(Türk Dünyası (yeni nəsil) şeir antologiyası)

***3 cilddə.* II cild**

"QHT Nəşriyyatı"
BAKI – 2016

Layihə rəhbəri: **Əfsanə B. ƏLƏSGƏRLİ**

Tərtibçilər: **Şəfa VƏLİ, Nofəl ÜMİD, Gülnar SƏMA, Rübabə SAHİB, Sərvər KAMRANLI**

Redaktor: **Əkbər QOŞALI, Sərdar ŞİRVAN**

Məsləhətçilər: **Musa URUD**, *Millət vəkili, şair-publisist*
İbrahim İLYASLI, *Əli Kərim ad. Poeziya Klubunun direktoru (Sumqayıt)*
Osman BAŞ, *"DünyaDER" başqanı (Ankara)*
dr. **Şəmsəddin KUZƏÇİ,** *Türk Dünyası Gənc İlətişimçilər Birliyinin başqanı (Ankara)*
Leysan SAFİNA, *"İDEL" Tatar Dövlət Gənclər Mərkəzinin direktoru (Kazan)*

Rəyçilər: *dos.dr.* **Hikmət BABAOĞLU**, *Millət vəkili, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru*
İbrahim YILDIRIM,
Yunus Əmrə İnstitutu Bakı Türk Mədəniyyət Mərkəzinin müdiri
Mehmet Nuri PARMAKSIZ,
İLESAM başqanı (Ankara)
prof.dr. **Güllü YOLOĞLU,**
AMEAnın aparıcı elmi işçisi
Dəyanət OSMANLI,
Azərbaycanda Atatürk Mərkəzinin baş redaktoru

Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB).
ŞEİR ÇƏLƏNGİ. (Türk Dünyası (yeni nəsil) şeir antologiyası).3 cilddə. II cild. "QHT Nəşriyyatı", Bakı 2016, 216 səh.

Kitab Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi "Türk Dünyası gənc yazıçılarının (əsərlərindən ibarət antologiyanın nəşri və) Bakı Toplantısının keçirilməsi" layihəsi çərçivəsində hazırlanıb.
Kitab Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB) tərəfindən hazırlanıb, onun məzmunu hər hansı formada Şuranın mövqeyini əks etdirmir.)

İSBN:9789952-480-04-7

© Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB), 2016

TÜRK DÜNYASI ƏDƏBİYYATI:
KÖK(LƏR)DƏN BUDAQ(LAR)A...
BUDAQ(LAR)DAN KÖK(LƏR)Ə...

Qədim köklərə malik Türk Dünyasının zəngin ədəbiyyatı çağdaş dövrümüzdə yeni məzmun, bəzən yeni forma, habelə üslub və texnikası ilə yeni dönəm yaşamaqdadır. Vaxtilə Sovet İttifaqı tərkibindəki bir sıra türk xalqları arasında ədəbi-mədəni ilişkilər mövcud olsa da, bu işbirliyi daha çox həmin dövrün tələb və ideologiyasını əks etdirirdi. Yəni, ədəbiyyatda nə qədər uğurlu örnəklər yaradılsa da, əsas qayə və məqsəddə yenə də sovet həyatının tərənnümü dayanırdı...

Əlbəttə, sovet sisteminin siyasi-ideoloji çərçivələrinin inadla qorunduğu vaxtlarda da, öz ədəbi kredosuna, idealına sadiq qalaraq, müxtəlif "ədəbi üslublarla", "sətiraltı anlam"larla özlərinin müstəqil düşüncələrini və ideyalarını ifadə edən yazarların, fikir adamlarının varlığını danmır, onlardan haqqa qovuşanları ehtiramla yad edir, yaşayanlara isə möhkəm can sağlığı diləyirik.

90-cı illərin əvvəllərində ittifaqın süqutu ilə Azərbaycan başda olmaqla, bir sıra türk xalqlarının müstəqilliyə qovuşması ədəbi mühitdə də məzmun və ideya baxımından yeni üfüqlər açdı. Artıq ortaq keçmiş və adətlərə, mədəni irsə malik türk xalqları ədəbi ilişkilərə, ədəbiyyata milli özünüdərk prizmasından yanaşmağa başladı. Bugün Türk Dünyası ədəbiyyatı ilə bağlı bir çox layihələrin icra edilməsi, geniş çalışmaların müşahidə olunması sevindirici haldır.

Saxadan tutmuş Türküstana, Qafqazlardan tutmuş Balkanlara qədər böyük coğrafiyada hər bir xalqın çağdaş ədəbi mühitinin yetirmələri, özəlliklə də, gənc yazıçıları arasında ədəbi ilişkilərin olması sevindirici haldır. Gənc istedadların öz xalqlarının ədəbiyyatına töhfə verməsi ilə yanaşı, ümumtürk ədəbiyyatına da inteqrasiyası, digər qonşu türk xalqlarının ədəbi mühitini öyrənməsi, onlar arasında qarşılıqlı ideya mübadiləsi yeni-yeni yaradıcılıq örnəklərinin meydana gəlməsinə rəvac verir. Yeni nəsil ədəbiyyat təmsilçilərinin əsərlərinin ümumtürk ədəbi mühitində yayılması, daha böyük auditoriyaya çatdırılması və onlar arasında qarşılıqlı yaradıcılıq mübadiləsinin təşəkkül tapmasını türk xalqları ədəbiyyatına əvəzsiz xidmət hesab etmək olar.

Bu baxımdan Dünya Gənc Türk Yazarlar Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şu-

rasının maliyyə dəstəyi ilə həyata keçirdiyi layihə əsasında onların əsərlərindən ibarət toplunun işıq üzü görməsi, düşünürəm ki, Türk Dünyası ədəbiyyatını sevən oxucular, araşdırmaçılar və yazarlar üçün bir ərmağandır.

Bu kitabda iştirakçıların öz ölkələrindəki ədəbi mühit, ədəbiyyat təsərrüfatının durumu, ədəbi gələnəklər və perspektivlərlə bağlı layihə çərçivəsində keçirilmiş toplantı və konfranslarda etdiyi məruzələrin mətni, eləcə də, gənc yazarların bir sıra ədəbi əsərləri yer alıb.

Bakıda keçirilmiş konfrans zamanı hər biri ilə şəxsən tanış olduğum gənc yazarlar – Zeynəb Tək (Türkiyə), Sayat Kamşıgər (Qazaxıstan), Kaliça Jakup (Qırğız Respublikası), Aygiz Baymuxammet (Başqurdistan), Şahista Artıkova (Özbəkistan), Ümid Nəccari (Təbriz) kimi gənc ədiblərin öz ölkələrinin ədəbi mühitləri barədə məruzələrini həm də yeni nəsil gənc yazarların Türk Dünyası ədəbi mühitinə yeni baxışı hesab etmək olar. Bu baxışlarda eyni kökdən qidalanan mənəviyyat ağacının yeni pöhrələnən və çiçəklənən budaqlarının nə qədər sağlam olduğunu və öz kökünə nə qədər bağlı olduğunu görə bilərsiz. Bu kitabda toplanmış, məzmun və ideya baxımından rəngarəng olan ədəbi örnəklər dünya türk gəncliyinin işıqlı düşüncəsini, iç dünyasını, bədii təfəkkürünü əks etdirir. Hər bir misrada ülvi duyğular və sevgi hissləri ilə yanaşı, həm də milli özünüdərk düşüncəsi, ümumtürk sevgisi, ana dilinə və soykökünə bağlılıq görülməkdədir. Dünyanın indiki halında, yeni nəsil ədəbiyyat təmsilçilərinin yaradıcılığında milli düşüncə və duyğuların bədii boyalarla əks edilməsi, məncə, daha böyük maraq doğurur və təqdirəlayiqdir.

Məsələn, gənc şair Oksana Kobanın misraları düşünürəm ki, təkcə qaqauz dili deyil, ümumilikdə türk dilini vəsf edir:

Dilim, Gagauz dilim!
Sana nelär da sölesäm,
Sana nelär da bän yazsam,
Ucuzdurar her taraftan.

Senin lafın baldan tatlı,
Göktän data maavi durêr!
Senin sözün Gündän şafklı,
Güldän dä taa gözäl açêr!

Dilim, Gagauz dilim!

Və ya İraqın Türmanelindən istedadlı gənc şair İpək Dəmirçinin Kərkükə həsr etdiyi misralarında ümumilikdə vətənə olan sevginin bədii boyalarla əksini görmək mümkündür:

Kerkük'ün musallası
Yanar sönmez lalası.
Kerkük'ten ayrı kalmaz
Ne Türkmen, ne balası.

"Şeir çələngi"ndə yer alan yaradıcılıq nümunələrində vətən sevgisinin, müəllifin daxili yaşantılarının, eləcə də, xalqın tarixi keçmişinin uğurlu bir üslub vasitəsilə harmonic şəkildə çulğaşa bilməsi gəncliyin bədii tapıntılarındandır. Kitab belə örnəklərlə doludur.

Əslində, "Şeir çələngi"ndəki mətnlərdən çox danışmaq olar, ancaq ən yaxşısı, əlinizdəki kitabla sizi baş-başa buraxmaqdır, deyə düşünürəm. Ümid edirəm ki, DGTYB-nin bu növbəti nəşrində öyrənməli, araşdırılmalı xeyli material var. Bax, belə bir kitabı ərsəyə gətirməyin özü də bir uğurdur. Bu uğur münasibəti ilə yaradıcı heyəti, oxucuları və yazarlarımızı ürəkdən təbrik edir, hər birinə yeni-yeni başarılar diləyirəm. Ümumtürk sevgisi ilə ümumtürk maraqları uğrunda irəli sürdükləri bütün təşəbbüslərində və bu nəcib məqsədlə atılan bütün addımlarında DGTYB-nin bütün üzvlərinə uğurlar arzulayıram.

Saygılarımla,
dr. **Cavanşir FEYZİ**YEV,
Millət vəkili

TÜRK DÜNYASI GƏNC YAZARLARININ III BAKI TOPLANTISI UĞURLA BAŞA ÇATDI

İyulun 10-14-ü aralığında Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının donorluğu ilə həyata keçirdiyi "Türk Dünyası gənc yazarlarının (əsərlərindən ibarət almanaxın nəşri və) BAKI TOPLANTISININ KEÇİRİLMƏSİ" adlı 5 aylıq layihə çərçivəsində silsilə tədbirlər düzənləndi.

Ayın 10-u layihənin Türkiyə, Qazaxıstan, Qırğız Respublikası, Özbəkistan, Başqurdistandan, habelə Təbrizdən (və "Türk Dünyasının 2016-cı il Mədəniyyət Paytaxtı" Şəkidən, "Avropanın 2016-cı il Gənclər Paytaxtı" Gəncədən, "Azərbaycanın 2016-cı il Gənclər Paytaxtı" Şəmkirdən, eləcə də, Naxçıvan Muxtar Respublikasından) olan iştirakçılarının qarşılanması, iştirakçıların bir-biri ilə tanışlığı və üçgünlük proqram haqqında yekun bilgiləndirmə həyata keçirildi.

Ayın 11-də layihənin bir qrup iştirakçısı Fəxri Xiyaban, Şəhidlər Xiyabanı və Bakı Türk Şəhidliyini ziyarət etdi. Öncə, Ulu öndər Heydər Əliyevin xatirəsi ehtiramla yad edilərək məzarı önünə gül dəstəsi qoyuldu. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla yad olundu.

Şəhidlər Xiyabanına gələn iştirakçılar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə gül düzdülər. Sonra iştirakçılar "Bakı Türk Şəhidliyi" abidə-kompleksini də ziyarət etdi; ziyarət olunan yerlər barədə qonaq yazarlara bilgi verildi.

Türk Dünyası ədəbiyyatının gənc təmsilçilərinin görüş ardıcıllığı ilə sadalasaq, AYB sədri, Xalq yazıçısı ANAR, MM-in Komitə sədrinin müavini, şair-publisist Musa Urud, Atatürk Mərkəzinin müdiri, AMEAnın müxbir üzvü, millət vəkili Nizami Cəfərov, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, maraqlı türkoloji araşdırmalar müəllifi, millət vəkili dos.dr. Hikmət Babaoğlu, AMEA-nın vitse-prezidenti, AMEA Ədəbiyyat İnstitutunun direktoru, millət vəkili

İsa Həbibbəyli, Azərbaycan Mətbuat Şurasının üzvü (“Türk dövlətləri birliyi” monoqrafiyası Türkiyə və Qazaxıstanda da işıq üzü görmüş) millət vəkili, dr. Cavanşir Feyziyev, millət vəkili dos.dr. Qənirə Paşayeva ilə, habelə ATXƏM başqanı, Dünya Azərbaycanlılarını əlaqələndirmə Şurasının üzvü İlham İsmayılovla, ATİB Baş katibi Pərvanə Hacıyeva ilə maraqlı görüş-müzakirələr oldu.

Türk coğrafiyası, ümumtürk ədəbiyyatı (mədəniyyəti), ümumiyyətlə türk xalqlarının ortaq dəyərləri ilə bağlı fikir mübadiləsi aparılan görüşlərdə, belə layihələrin türk xalqları arasında qardaşlıq duyğularını qabartdığı, işbirliyi imkanlarını genişləndirdiyini vurğulandı; türk tarixi və ədəbiyyatının zənginliyi, yaradıcı gəncliyin bu zənginlikdən yalnız istifadəçi etməklə yetinməyib, qatqıda bulunmasının vacibliyini ifadə olundu. Qeyd edildi ki, Türk Dünyası ədəbiyyatını öyrənmək, daha da zənginləşdirmək məhz yeni nəslin üzərinə düşür.

Türk Dünyası mədəniyyəti, qarşılıqlı maraq doğuran mövzularla bağlı söhbətlərdə bir sıra maraq doğuran fikirlər səsləndirildi. İstedadlı gənc yazarların əsərlərindən ibarət toplulların nəşri, müxtəlif türk ölkələrində kitab təqdimatlarının keçirilməsi önəmli sayıldı. – Belə bir ortaq qənaət hasil oldu ki, bu və bənzəri yolla ümumtürk ədəbiyyatı, o cümlədən türk xalqları arasında ədəbi ilişkilər inkişaf edə bilər. – Əlbəttə, ilk növbədə, yaxşı əsərin özü olmalıdır ki, ocia da onun yayılması, təbliği gerçəkləşsin…

Qonaqlarda yüksək təəssürat doğuran görüş-müzakirədə, türk xalqları ədəbiyyatı ilə bağlı Azərbaycanda görülən işlər barədə ətraflı bilgi verildi. Azərbaycanlı aydınlar tərəfindən indiyə kimi müxtəlif türk xalqlarının ədəbiyyatı ilə bağlı bir sıra kitablar nəşr edilib, tədqiqat işləri yazılıb; bu proses bugün də, gənc alimlərin iştirakı ilə uğurla davam edir.

Türk xalqlarının tarixin çətin yollarından keçdiyini xatırladan natiqlər, ədəbiyyatın insanlığı mənəvi-idraki baxımdan zənginləşdirən güclü bir vasitə mahiyyəti daşıdığı, gənc yazarların da məhz milli amala xidmət etməli olduğu düşüncəsinə ortaq çıxdılar.

Qeyd olundu ki, layihənin məqsədi – türk ölkə və topluluqlarından olan yazarların həm ölkə daxilində, həm də uluslararası ədəbi mühitdə tanıdılması, toplumda ədəbiyyata, ədəbi gələnəklərə, ocial axtarışlara ilgi və diqqətin artırılması, sayğıya layiq düşüncənin məhsuludur.

Həmçinin, ölkələr, xalqlararası ədəbi inkişafın stimullaşdırılmasına yönəldilmiş belə layihələrin özgü mənəvi önəm daşıdığı da vurğulanıb.

***

Tədbirlərin gedişində Azərbaycanlı yazarlar, millət vəkilləri, aydınlar qonaq yazarlara öz kitablarını imzaladı, onları ilgiləndirən suallara cavab verdi.

Türk ölkə və topluluqlarından gələn gənc yazarlara, həmçinin Azərbaycan həqiqətlərini əks etdirən nəşrlər, o cümlədən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının aparıcı dünya dillərində hazırladığı bilgiləndirici CD-lər təqdim edildi.

Tədbirlər boyu bir qrup iştirakçıya və qonaq yazarlara DGTYB ilə fəal əməkdaşlığa, III Bakı Toplantısı çərçivəsində uğurlu çalışmalara görə "Onur Bəlgəsi" təqdim olundu.

Qonaqlar da Azərbaycanlı millət vəkilləri və aydınlara öz ölkələrinin mədəniyyətini əks etdirən hədiyyələr bağışladı.

***

Xatırladaq ki, III BAKI TOPLANTISInın açılış törəni birinci işçi gün (11.07.2016) Azərbaycan Yazıçılar Birliyinin "NATAVAN Klubu"nda baş tutdu. Müzakirələr saat 17.00-da Azərbaycanda Atatürk Mərkəzində davam etdirildi.

12 iyulda "Üç əsrin qəzeti" deyə tanıda biləcəyimiz "Kaspi" qəzeti redaksiyasında görüş-müzakirə keçirildi.

İkinci işçi günün ikinci yarısında Yunus Əmrə İnstitutu Bakı Kültür Mərkəzində "Türk Dünyası ədəbiyyatı: dünən, bugün, sabah…" ana mövzusu üzrə müzakirələr keçirildi; qonaq yazarlar öz

ölkələrindəki ədəbi durum, ədəbi işbirliyi imkanları haqqında bilgiləri əhatə edən məruzələrlə çıxış etdi.

13 iyulda isə AMEA Ədəbiyyat İnstitutunun Elektron zalında görüş-müzakirə keçirildi.

3-cü işçi günü, s.17-19.30 aralığında isə AMEA Mərkəzi Elmi Kitabxanasının Böyük Zalında "Türk Dünyası Gənc Şairlərinin Şeir Axşamı" təşkil olundu.

***

Qədim və zəngin ənənələrə malik olan türk xalqları ədəbiyyatı bu gün də, uğurlu yaradıcılıq örnəkləri ilə seçilir, çağdaş ədəbi prosesi bir sıra yeni istedadları üzə çıxarır. Bu işdə türk dünyası yazarlarının, özəlliklə də, gənc ədəbi qüvvələrin işbirliyinin möhkəmlənməsi, qarşılıqlı fikir alış-verişi önəmli rol oynayır.

Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) Azərbaycan Prezidenti yanında Qeyri Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının donorluğu ilə həyata keçirdiyi "Türk dünyası gənc yazarlarının (əsərlərindən ibarət almanaxın nəşri və) Bakı Toplantısının keçirilməsi" adlı beş aylıq layihə çərçivəsində silsilə tədbirlər də məhz bu amala xidmət etdi.

Türkiyə (Zeynəb Tək), Qazaxıstan (Sayat Kamşıgər), Qırğız Respublikası (Kaliça Jakup), Özbəkistan (Mahfuza Ortikova, Şohista Artikova), Başqurdistandan (Dövlət Gənclər ödülü sahibi Aygiz Baymuxammet), habelə Təbrizdən (Ümid Nəccar, Dinməz Türk), "Türk Dünyasının 2016-cı il Mədəniyyət Paytaxtı" Şəkidən, "Avropanın 2016-cı il Gənclər Paytaxtı" Gəncədən və "Azərbaycan Respublikasının 2016-cı il Gənclər Paytaxtı" Şəmkirdən, eləcə də, Naxçıvan Muxtar Respublikasından gənc qələm sahibləri (Vasif Zöhraboğlu, Lamiyə İsazadə, Tural Turan, Gülsadə İbrahim), paytaxtımızda fəaliyyət göstərən ədəbi qurumların nümayəndələri, yeni nəsil yazarların iştirakı ilə keçən III Bakı Toplantısı rəngarəng, yaradıcı müzakirələrlə yadda qaldı.

***

Qəbul və görüş-müzakirələrdə qonaqlar öz ölkələrində baş verən ədəbi proseslərdən, gənc yazarların ədəbiyyata verdiyi töhfələrdən, öz ölkələrinin ədəbi fikir tarixindən, bugünkü ədəbiyyat təsərrüfatı, işbirliyi imkanlarından danışdı.

Azərbaycanlı millət vəkilləri, yetkili şəxslər, nüfuzlu aydınlar, tanınmış yazarlar da öz növbələrində, ölkəmizdə həyata keçirilən mədəniyyət siyasəti, konkret olaraq ədəbiyyata, yeni yaradıcı qüvvələrə dövlət qayğısından söz açdılar, türk ölkə və topluluqları ilə tarixi, mövcud və gələcək işbirliyi barədə düşüncələrini bölüşdülər.

Türk xalqları ədəbiyyatının inkişafı baxımdan bu cür tədbirləri yüksək qiymətləndirən millət vəkilləri, nüfuzlu aydınlar, layihə iştirakçılarına yeni yaradıcılıq uğurları, səmərəli işbirliyi arzuladılar.

Fəal fikir alış-verişi ortamında keçən görüş və müzakirələrdə layihənin və toplantının məram-məqsədi barədə təqdiredici fikirlər səsləndi, III Bakı Toplanstısının Türk Dünyasında ədəbi işbirliyinə növbəti töhfə olduğu vurğulandı və qeyd edildi ki, istedadlı yaradıcı gənc yazarların görüşü məhz ədəbi işbirliyinin daha da inkişafına, (yalnız bugününə deyil) gələcəyinə xidmət edir.

Qeyd edildi ki, DGTYB yarandığı gündən ümumtürk coğrafiyasında istedadlı yaradıcı gənclərin axtarışında olmuş, onlar arasında ədəbi ilişkilərin güclənməsinə öz töhfəsini verməyə çalışmışdır. Öz gələnəklərinə sadiq qalan DGTYB, III Bakı Toplantsı vasitəsi ilə qardaş ölkə və topluluqların ədəbi mühitində seçilən istedadlı gəncləri bir araya toplayıb.

***

Üç gün sürən silsilə tədbirlərdə qonaq yazarlar öz ölkələrindəki ədəbi durum, ədəbi işbirliyi imkanları haqqında bilgi verdi, bu cür layihələrin gənc yazarların bir-birini yaxından tanıyıb, işbirliyi qurması üçün böyük rol oynadığını vurğuladılar, müvafiq məruzə-

lərlə çıxış etdilər, keçmişdən günümüzə formalaşan ədəbi mühit-(lər), çağdaş dövrdə işbirliyi imkanları barədə fikirlərini bölüşdülər.

Həmçinin qeyd edildi ki, çağdaş dövrdə türk xalqlarının əsərlərinin digər türk dillərinə uyğunlaşdırması (çevrilməsi) olduqca vacibdir; ona görə də, bu sahəyə ciddi önəm verilməlidir ki, çağdaş Türk Dünyası ədəbiyyat təsərrüfatı bir-birilə qarşılıqlı əlaqə və harmoniyada olsun. Türk ölkə və topluluqlarını təmsil edən yaradıcı gənclər arasında mənəvi və ədəbi körpünün olmasının alqışlandığı çıxışlarda, bu cür görüşlərin ədəbiyyata həm ilişkilər, həm təcrübə mübadiləsi, həm də biləvasitə yaradıcılıq fakturası baxımından fayda verəcəyi, yeni uğurlara ruhlandıracağı vurğulandı.

***

Layihə rəhbəri Əfsanə Ələsgərli, DGTYB Məsləhət Şurasının başqanı, Atatürk Mərkəzinin şöbə müdiri Əkbər Qoşalı, AYB katibi İlqar Fəhmi, AYB katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, yeni nəsil yazarları arasında öz populyarlığı ilə seçilən (sevilən romanlar müəllifi) VARİS, Sumqayıtdakı Əli Kərim ad. Poeziya Klubunun direktoru, şair İbrahim İlyaslı, Başqurdistanda yaşayan Azərbaycanlı şair Baloğlan Cəlil, dos.dr. Təranə Turan Rəhimli, dos.dr. Pərvanə Məmmədli, Azərbaycanda yaşayan Türkiyəli şair Səlcuk Düzgün, Yunus Əmrə İnstitutu Bakı Türk Kültür Mərkəzinin məsul əməkdaşı Nuranə Tağı, araşdırmaçı-yazar Elnur Eltürk, "Kaspi" qəzetin baş redaktor müavini Araz Ağayev, "Kaspi-Ədəbiyyat" həftəlik buraxılışının redaktoru Fərid Hüseyn və b.-ları türk ölkə və topluluqlarını təmsil edən gənc yazarların Bakıda olmasından məmnunluq duyduqlarını bildirib, çağdaş ədəbi mühit, Türk Dünyası ədəbiyyatının üzərinə düşən vəzifələr və s. ilə bağlı fikirlərini bölüşdü.

Çıxışlarda, gənc yazarlar Türk Dünyasının işıqlı gələcəyi adına səyləri birləşdirməyə çağrılıb; müxtəlif ölkələri təmsil edən yazarlar Azərbaycanın haqq işi olan ərazi bütövlüyünün bərpası işindən yazmağa, bu istiqamətdə vahid mövqedən çıxış etməyə səslənilib.

Üçgünlük silsilə tədbirlər AMEA-nın Mərkəzi Elmi Kitabxanasının böyük zalında “Türk Dünyası Gənc yazarlarının Şeir Axşamı” ilə sonuclandı. Ədəbi-bədii, musiqili gecədə türk ölkə və topluluqlarından gəlmiş gənc yazarlarla yanaşı, doğma Təbrizdən, “Avropanın 2016-cı il Gənclər Paytaxtı” Gəncədən, Naxçıvan Muxtar Respublikasından, “Azərbaycan Respublikasının 2016-cı il Gənclər Paytaxtı” Şəmkirdən, “Türk Dünyasının Mədəniyyət Paytaxtı” Şəkidən istedadlı qələm sahibləri çıxış etdi. Gecədə istedadlı solo-saz ifaçısı Azər Xanlaroğlu, istedadlı gənc aşıqlar – Elməddin Məmmədli, Şəhriyar Kərim, tanınmış vokalist İlham Əsgəroğlunun ifaları, sevilən bəstəçi Sevinc Tofiqqızının kompozisiyası, tanınmış kanon ifaçısı Humay Abbasın çıxışı tamaşaçılarda xoş ovqat yaratdı.

Onu da qeyd edək ki, hər bir tədbirdən yazılı, habelə video materiallar, eləcə də, türksoylu ölkə və topluluqlardan gəlmiş layihə iştirakçılarının Azərbaycan təəssüratları sosial şəbəkələrdə (o cümlədən “yutub”da) paylaşılıb və necə deyərlər, “TOPLANTI BİTDİ… TOPLANTI DAVAM EDİR…”

MƏRUZƏLƏR

ÇAĞDAŞ TÜRK ƏDƏBİYYATINA ÜMUMİ BİR BAXIŞ

ZEYNƏB TƏK
TÜRKİYƏ
Yıldırım Bəyazid Universitetinin əməkdaşıdır. "Bergsondan Mustafa Şekipe "Gülme" kitabının həmmüəllifidir.

1860-cı ildən sonra Türk ədəbiyyatı əsasən çağdaş (yeni) Türk ədəbiyyatı çərçivəsində qəbul edilir. 3 noyabr 1839-cu ildə dövlət tərəfindən elan edilən tənzimat fərmanı ilə batılaşma hərəkatının dövlətin rəsmi siyasətinin parçası olması, yeni bir dövrün ortaya çıxmasına səbəb oldu. Bu fərmanla "imperiya əsrlərlə yaşadığı mədəniyyət dairəsindən çıxaraq mübarizə halında olduğu başqa bir mədəniyyət dairəsinə girdiyini bəyan edir, onun dəyərlərini açıq şəkildə qəbul edirdi" (Tanpınar 2012, s.137). Beləliklə 1860-cı ildən sonra müxtəlif siyasi və sosial anlayışların ətrafında və ümumi ədəbiyyatın içində sosial, siyasi və ideoloji bir ədəbiyyat, bir siyasət və kültür anlayışı meydana gəlmişdir (Emil 1997, s. 115-116).

İbrahim Tüzer'in (2014) qeyd etdiyi kimi "yeniləşmənin sancısını ədəbi mətnlərdən çıxış edərək də, izləmək mümkündür" (s. 28). Mədəni böhran və batılaşmanın ən çox görünən sahələri içində ədəbiyyat ilk yerdə gəlməkdədir. Maariflənmə fəlsəfəsinin ən çox təsiri bu anlamda Batı qaynaqlı siysi anlayışların türk ədəbiyyatına daxil olması diqqət çəkən dəyişiklərdəndir. Batı ədəbiyyatının tərcümə və uyğunlaşdırma yolu ilə tanıdılması ilə yanaşı, Batı qaynaqlı ədəbi əsərlərin türk ədəbiyatına daxil olması Tənzimat dövrü ilə eyni dövrə düşür.

Artıq məzmun və forma özəllikləri baxımından Divan şeirindən fərqli və Batı təsirində bir ədəbiyyat formalaşmağa başlamışdır. Bu anlamda yüz əlli ildən çox və hələ də davam edən bir ədəbi dövrə işıq tutmağın çətinliyinə görə bu araşdırma yazıda seçilən tanınmış sənkarların ədəbi fəaliyyətinə dayanaraq təhlil aparılacaq.

Tənzimatdan dövrümüzə çağdaş Türk şeiri

Şeir Türk ədəbiyyatının ilk dövrlərindən bu günə kimi ən əlçəkilməz ədəbi əsərlərdən biridir. Türk şeirinin keçdiyi yolu təhlil etmək üçün Tənzimat dövründən başlamaq daha düzgün olardı. Çağdaş Türk şeirini klassik şeirdən fərqləndirən cəhətlər hansılardır? Çağdaş şeir fərdin mənəvi ağrılarını, faciələrini, zorluqlarını əsas tutur. Şairin fərd olaraq duyğularının önə çıxdığı bu tərz şeirdə insan sosial, siyasi məsələləri ilə ədəbi mətndə özünə yer tapır…

Bu anlamda, Şinasi, Ziya Paşa və Namiq Kamal fərdi (insan!) məsələlərinin önə çıxdığı siyasi və sosial mövzuların işıqlandırıldığı dövrün sənətkarlarıdır. Çağdaş dünyagörüşü, demokratiya və azadlıq kimi mövzulara önəm verilən bu dövr, forma baxmından da əski şeirdən fərqlənir. Divan formalı şeirin populyarlığının azalması, yeni forma axtarışları, ərəb-fars kökənli ifadələrin əvəzinə xalqın istifadə etdiyi sözlərə üstünlük verilməsi, canlı danışıq tərzinə yaxın misraların istifadəsi və s. o dövrün əsas yeniliklərindəndir.

Özəlliklə Batı mədəniyyəti ilə formalaşan və batılaşmağı sadəcə texniki olaraq deyil, mədəniyyətində də örnək alınmasını vacib hesab edən Tənzimat sonrası Servet-i Fünûn nəsli, çağdaşlaşmanın əsasında insanın ağlını əsas dəyər olaraq hesab etmişdir. Maariflənmə fəlsəfəsinin təsiri ilə pozitiv və rasionalist paradiqmanı bu mədəniyyətin qurulmasında əsas görmüşdür. Bu anlamda "boşluq" duyğusu ilə qarşılaşan və yüz illərdir, inandığı dəyərləri sarsılan çağdaş insan, öz faciəsini dilə gətirməyə başlamışdır...

Tovfiq Fikrətin (1867 - 1915) "İnanmaq ehtiyacı" bu psixologiyanı işıqlandıran və çağdaş insanın yoxluq duyğusunun verdiyi əzabı dilə gətirən və çağdaş insanın durumuna diqqət çəkən bir şeirdir. Ramazan Qorxmazın (2009) ifadəsi ilə desək, Fikrət "İnanmaq ehtiyacı" şeirində insanın dəyərlər dünyasından qopmasını və bunun yaratdığı baş fırlanması"nı izah edir (s. 148).

Bütün boşluq: Zəmin boş, asüman boş, qəlbü-vicdan boş;
Tutunmaq istərəm, bir nöqtə yox piş-i hasarımda.

(T. Fikrət 1327, s. 219)

-deyən şair, 'bütün'ü bir boşluq olaraq gördüyünü və iki nöqtə işarəsi ilə açıqladığı "bütün kainatın yer, göy, qəlb və vicdan olaraq da boşluğa qarşılıq gəldiyini" ifadə edir". Qarşısında tutmağa bir nöqtə olmadığını söyləyən şairin bu ifadəsi tam anlamda ayaqlarının altında yerin sürüşdüyünü hiss edən bir insanın çarəsizliyi kimi anlaşılmaqdadır. Faciəvi sayıla biləcək bir boşluq hissinə baxmayaraq, tutunma ehtiyacı duyulmaqdadır;

İnanmaq…
İştı bir ağuş-ı ruhani o qürbətdə.
(T. Fikrət 1327, s. 219)

-deyən və "inanmağ"ı özəlliklə vurğulayan şair, ancaq inamın, bu dünya qürbətində, mənəvi ruhani bir qucaq ola biləcəyini ifadə edir. Heçlik duyğusunun çağdaş insana yaşatdığı əzabdan bəhs edən bu şeir, çağdaş türk ədəbiyyatını anlamaq baxımından da təsəvvür yaradır. Daha sosial məzmunlu Tənzimat və Sərvəti-Fünun ədəbiyyatından sonra 1908–1923cü illər arasında ədəbiyyatımızda II Məşrutiyyə dövrü türk ədəbiyyatı formalaşır. Milli ədəbiyyat isə bu dövrün (1911–1923) ən güclü ədəbi cərəyanıdır. Bu dövr ədəbiyyatında Balkan müharibələri, I Dünya Müharibəsi və Qurtuluş savaşının təsirləri öz izini buraxmış, milli duyğuların təsiri ilə əsərlər yazılmışdır. Ömər Seyfətdin, Ziya Gökalp, Yakup Kadri Karaosmanoğlu, Xalidə Ədip Adıvar, Rəfik Xalid Karay, Falih Rıfkı Atay, Reşat Nuri Güntəkin, Yusuf Akçura, Xalidə Nüsrət Zorlutuna, Mithat Cemal Kuntay bu ədəbi cərəyanın tanınan nümayəndələridir.

Yahya Kemal (1884 - 1958) isə məqalə və konfransları ilə bu cərəyanı dəstəkləmişdir.

Nurullah Çetin (2013) önəmli bir məsələyə diqqət çəkərək türk ədəbiyyatında Vətən anlayışının Namiq Kamaldan etibarən birbaşa hərbi, siyasi bir mahiyyətdə olduğunu, daha çox savaş və qəhrəmanlıq fonunda təsvir edildiyini, Yəhya Kamalın isə vətən anlayışına kültürəl və mənəvi mahiyyət qatdığını qeyd etmişdir (s. 17). Osmanlının tarix və mədəniyyətini şeirinin əsas mövzularından hesab edən sənətkar, İstanbul və ətrafından bəhs edən çoxlu şeir yazmışdır.

Musiqisi, memarlığı, dili, tarixi və kültürü ilə bütövlükdə Türk mədəniyyətinin böyüklüyünü əsərlərində vəsf etmişdir. Şair "Bir başqa təpədən" şeirində İstanbula duyduğu sevgi və heyranlığını bu misralarla bildirir:

Sənə dünən bir təpədən baxdım, əziz İstanbul!
Görmədim gəzmədiyim, sevmədiyim heç bir yer.
Ömrüm olduqca, könül taxtıma keyfincə qurul!
Sadə bir səmtini sevmək belə bir ömrə dəyər.
Necə rövnəqli şəhərlər görülür dünyada,
Lakin əfsunlu gözəllikləri sənsən yaradan.
Yaşamışdır deyərəm, ən xoş və uzun röyada
Səndə çox il yaşayan, səndə ölən, səndə yatan.

(Beyatlı 1974, s. 21)

Cümhuriyyətdən sonra milli romantik duyğu tərzini özündə ehtiva edən, Anadolunun gözəlliyinin, vətən və millət sevgisinin önə çıxdığı ədəbiyyat anlayışı məmləkət ədəbiyyatı adlandırılır. Bu dövrdə diqqətini İstanbuldan Anadoluya yönəldən sənətkarlar məmləkət sevgisini əsərlərində dilə gətirmişlər.

Faruk Nafiz Çamlıbelin (1898-1973) "Ulukışla yolundan Orta Anadoluya" etdiyi səfərin hekayəsindən bəhs edən "Han duvarları" şeirində olduğu kimi Anadolu coğrafiyası, insan gözəllikləri vəsf edilən ünsürlərin əsasını təşkil edir. Şair şeirin son dördlüyündə aşdığı yollara və qaldığı han (karvansara) divarlarına səslənir:

Ey, kəndləri hüduda bağlayan yaslı yollar,
Dönməyən yolçulara ağlayan yaslı yollar!
Ey, qərib cizgilərlə dolu han divarları,
Ey, hanların könlümü sızladan divarları...

(Çamlıbel 1995, s. 8)

Cumhuriyyət dövründə realizm də özəl yer tutur. Marksist ideologiyaya əsaslanan bu cərəyan fəhlə problemlərini, kəndlilərin əzilməsini, siniflərarası ziddiyyətlərini işıqlandırır. Tezis xarakterli fikirlərin və xitab üslübunun mövcud olduğu bu ədəbi cərəyanın ən güclü təmsilçisi Nazim Hikmətdir (1902-1963). Sərbəst və realist şeirin ilk örnəklərini verən şair, Rusiyada tanınmış şair Vladimir Mayakovskidən təsirlənmişdir. Şeirə sinemoqrafik hərəkətlilik

gətirmiş, “Kərəm kimi” şeiri misalında, misraları nərdivan formasında düzmüşdür:

Ürəklərin
qulaqları
kardır...
Hava güllə kimi ağır...
Mən deyirəm ki, ona:
- Kül olayım
Kərəm
kimi
yana
yana.
Mən yanmasam
Sən yanmasan
biz yanmasaq,
necə
çıxar
qaranlıqlar
aydınlığa...

(Hikmət, 2013, s. 204-205)

Qərib axının tanınmış təmsilçisi Orxan Vəli Kanık (1914-1950) da, Türk ədəbiyyatının ən populyar şairlərindəndir.

1941-1950-ci illərdə çox təsirli olan Qərib axını (I yeni) özündən öncəki ədəbi cərəyan və anlayışlara qarşı çıxaraq, türk şeirinə bir sıra yeniliklər gətirmişdir. Ədəbi sənət(lər)ə, şairanə ifadələrə, vəzn, qafiyə kimi ahəngi təşkil edən ünsürlərə qarşı çıxan bu cərəyan tərəfdarları, sadə insanı və onun gündəlik həyatını öz şeirlərində əsas götürmüşlər. Əsasən sadə danışıq üslubunda sərbəst şeirlər yazmışlar. “Qatar səsi” şeirində bu cəhətləri görmək mümkündür:

Qəribəm;
Nə bir gözəl var ovudacaq könlümü,
bu şəhərdə,
nə də bir tanınan çöhrə;
Bir qatar səsi duymağa bəndəm,

iki gözüm,
iki çeşmə...

(Vəli, 1998, s. 67)

Çağdaş Türk şeirinin güclü sətənkarlarından biri də Attila İlhandır (1925-2005). Qərib axınına qarşı Mavi cərəyanının tərəfdarı olan İlhan, buradakı şeir anlayışını 1952-56-cı illər arasında "Mavi" dərgisində izah etmişdir. İlhanın şeirləri kütləvi realizmi əks etdirməklə yanaşı, fərdi cəhətlərin önə çıxdığı əsərlərdir.

Ən poplyar şeirlərindən bəziləri: *"Eldə var hüzün", "Mən sənə məcburum", "Ayrılık sevdaya daxil", "An gelir", "Sevmək üçün gec, ölmək üçün erkən*" və s. Şeirində oxuyucuya təsir edən səmimiliyə uyğun olaraq, *"Zeynəb, məni gözlə"* şeirinin son hissəsindən örnək verilə bilər:

pikapta eminağa acem aşirân saz semaisi
sokakta çocuklar saklambaç hırsız polis
hayat akıp gidiyor olsam da olmasam da
saatı durmamalı ufak sorumlulukların
resmi bırakmadın ya / son çektiğin hangisi
bak mektuplar birikmiş yine masamda
fakülteler açılacak bak bugün yarın
zeynep beni bekle mutlaka geleceğim
başladığımız filmi birlikte bitireceğiz
kim ne derse desin içimde delice bir his

(İlhan, 2012, s. 29)

Cumhuriyyət sonrası Türk ədəbiyyatının ən önəmli ədəbi cərəyanlarından biri "İkinci Yeni"dir.

1954-cü ildə başlayan cərəyan dövrümüzə qədər təsirini hiss etdirməkdədir. Böyük şəhər insanının mənəvi depressiyalarına, mövcudluq problemlərinə, modernizmin səbəb olduğu böhranlara daha çox yer verilən bu şeir anlayışında qapalı bir dil ortaya çıxır. "İkinci Yeni" şairləri şeirin daha asan başa düşülməsinə qarşı çıxmış, oxucunun şeirə özünün anlam verməsi roluna üstünlük vermişlər.

Bu cərəyanın tanınan nümayəndələri Cemal Süreya, Turqut Uyar, Edip Cansevər, İlhan Bərk, Ece Ayhan, Ülkü Tamər və Sezai Karakoçdur. Bu sənətkarlarla üslubi baxımdan oxşar olsa da, Sezai Karakoç (1933-) şeirlərində və poetikasında islam estetikasını, Mütləq Həqiqətə duyulan inamın verdiyi ümidi, "diriliş" fikrinə önəm verməsi özəl yer tutur. Çünki Karakoça görə (2012); "Sənət, qaçsa da, inkar etsə də, "Tanrıya doğrudur" həmişə" (s. 25). "*Masal"* şeirində türk toplumunun Batı qarşısındakı durumunu bir atanın yeddi oğlu kimi simvolizə edib, yorumlayan şair, Batının oyunları qarşısında itib batan altı oğuldan sonra yeddinci oğlun oyanışını və yenidən doğulmasını bu cür dilə gətirir:

Yeddinci oğul büyümüşdü baxa baxa ağaclara,
Baharın, yayın, payızın, qışın sirrini öyrənmişdi ağaclarda.
Bir alın yazısı kimi idi quruyan yarpaqlar onda,
Bir də o taleyini sınamaq istədi,
Bir şəfəq vaxtı Batıya erdi,
Ən böyük Batı şəhərinin ən böyük meydanında
durdu və Tanrıya yalvardı öncə;
Özünü dəyişdirə bilməsinlər deyə.
Sonra birdən ona bir ilham gəldi
və başladı oymağa olduğu yeri,
Başına toplandı və baxdı batılılar;
O fikir vermədi baxışlara,
Qazdı durmadan qazdı.
Sonra yarı belinə kimi girdi çuxura,
Qələbəlik böyümüş çox böyümüşdü,
O zaman çevrilib dilləndi:
Batılılar!
Bilmədən
altı oğlunu udduğunuz
bir atanın yeddinci oğluyam mən!
Gömülmək istəyirəm bura heç dəyişmədən.
Atam öldü acılarından qardaşlarımın
ruhunu üzmək istəmərəm atamın.
Gömün məni dəyişdirmədən,

Doğulu olaraq ölmək istəyirəm mən.
Sizin bir tək amma böyük bir gücünüz var:
Qarşınızdakını dəyişdirmək..!
Məni öldürsəniz də çıxmaram burden,
Sümüklərim dəyişib toz-torpaq olacaq bəlkə
ancaq dəyişməyəcək ruhum..!
Onu aldatmaq üçün boşuna çox dil tökdülər,
acından çıxar deyə günlərcə gözlədilər;
o gün gün əridi amma çıxmadı dayandı.
Bu acıdan yer yarıldı, göy yandı,
o nurdan bir sütuna döndü, göyə uzandı!
Batı bu sütunu ortadan qaldırmaqda aciz qaldı,
Hələ də onu ziyarət edərlər, şəfa taparlar.
Ən sağalmaz yarası olanlar,
Ta ürəkdən vurulmuş olanlar,
Ürəyində insanlıqdan bir iz daşıyanlar…
(Karakoç 2013, s. 412-413)

Realist üslbda şeir yazan İsmət Özəl (1944), 1970-ci illərdən sonra islam şeirinin ən istedadlı nümayəndələrindəndir. Çağdaş dövrdə ən çox oxunan şairlərdəndir. Markist dövründə də islam düşüncəsini mənimsədikdən sonra şeirlərinin estetik dəyəri yüksəlmiş, hər iki dövrdə də insan və inasana dair hər cür mövzu onun şeirlərinin tematikasını təşkil etmişdir.

Mövcudluq məsələləri, çağdaşlıq və şəhərlərşmənin mənfi təsirləri, yadlaşma, standartlaşma və adiləşməyə qarşı durmaq şeirlərin əsas mövzularındandır.

Türkcənin bütün zənginliklərindən yararlanan şair, dilə xələl gətirmədən yeni forma yaratmışdır. Kütlələrə ünvanlanan şeirlərində epik söyləm güclüdür.

"Of Not Being A Jew" adlı şeirində "Eve dön! Mahnıya dön! Qəlbinə dön!" deyən şair "*Münacat*"ında aid olduğu yuvanın hara olduğunu soruşaraq axtarışını, bilmək arzusunu bu cür dilə gətirir:

İndi təkrar nə etsəm? dedirtmə mənə, ya rəbbi,
daşınacaq suyu göstər, qırılacaq odunu…

Qaldı bu silinməz yaşamaq günahı üzərimdə,
bilim hansı suyu daşıyıram, ya rabbəl-aləmin!
Yanması gərəkən ocaq hardadır?
(Özəl, 1999, s. 15)

Son dövr Türk şeiri fərqli şəkildə, ideologiyada və tərzdə çox sayda özgün şairin ədəbi çalışmaları ilə yeni məzmun qazanmışdır. Çağdaş dövrdə türk şeirində ən çox önə çıxan sənətkarlara missal olaraq, bu imzaları örnək göstərmək olar: Hilmi Yavuz, Şükrü Ərbaş, Haydar Ərgülən, Yavuz Bülənt Bakilər, Nurullah Gənc, İbrahim Tənəkəçi, Muratxan Munqan, "Həyatda mən ən çox atamı sevdim" deyən Can Yücəldən fərqli olaraq, "Həyatdan mən ən çox anamı sevdim" deyən Əbdülqədir Budaq, Əhməd Telli, beş il öncə vəfat etmiş "*Ah'lar Ağacı"* şairi Didəm Madak, dörd il öncə dünyadan köçən, "*Mihriban"* şeirinin yazarı Abdurrahim Karakoç, yaxın vaxtlarda vəfat etmiş Gültən Akın, Lalə Müldür, Birhan Kəskin...

Ahmet Mithattan Oğuz Ataya Türk Romanı

Batı ədəbi janrı olan roman Türk ədəbiyyatına Tənzimat dövründə daxil olmuş, ilk əsərlər bu dövrdə Şəmsətdin Sami, Namiq Kamal, Əhməd Midhət Əfəndi, Rəcaizadə Mahmut Əkrəm, Nəbizade Nazım tərəfindən qələmə alınmışdır.

Özəliklə çağdaş türk dəbiyyatında romanın yerini anlamaqda "Hace-i evvel" Əhməd Midhət (1844-1912) önəmlidir. Xalqa oxuma vərdişi qazandıran ünlü "yazı maşını" çox sayda əsər qələmə alıb. Çünki "girilən yeni mədəniyyət dairəsində arada qalmanın çaşbaşlığını yaşayan Osmanlı toplumu üçün (dövr etibarı ilə) bəlkə də, ən zəruri ehtiyac, necə bir dünya və mədəniyyətlə üz-üzə qalmanın fərqinə varılması, Batının hər yönü ilə bilinməsidir" (Tüzer 2014, s. 46). Dolayısıyla qeydlərində "kimliyini formalaşdırma dövründə olan bir toplumu maarifləndirmək üçün fərqli qurğu və anlatım

texnikası" (Tüzer, 2014, s. 323) istifadə edən yazar, xalq üçün roman yazma gələnəyini ədəbiyatımızda başladan yazıçıdır.

Halit Ziya Uşaklıgil (1866-1945) isə Əhməd Midhətdən fərqli olaraq, aydın / kültür romanının ilk önəmli nümayəndələrindəndir.

Sənətkarlığı ön planda tutan yazıçı, Namiq Kamalla çağdaş ədəbiyyatda sənətkarlıq üslubunu davam edən şəxsiyyətlərdən olmuşdur. Türk ədəbiyyatıda Qərb tərzində əsər yazan ilk böyük roman yazarı olaraq bilinməkdədir.

Realizm cəryanını mənimsəyən yazarın əsas əsərləri "*Aşk-ı Məmnu*", "*Qırıq həyatlar",* "*Mavi və Siyah"*dır. Özəl olaraq, "Aşk-ı Memnu", Türk roman tarixində olay ağırlıqlı qurğudan, xarakter inkişafetdirici qurğuya keçidin dönüş nöqtəsini təşkil etməkdədir." (Korkmaz 1999, s.166).

Milli ədəbiyyat dövrünün roman yazarlarına örnək olaraq Yakup Kadri Karaosmanoğlunun (1889-1974) adı çəkilə bilər. "*Kiralık Konak", "Nur Baba", "Sodom və Gomore", "Yaban"* bəyənilən romanlarından bəzilərıdir.

"Dönəm romanı" olaraq deyə biləcəyimiz əsərləri ilə Tənzimatdan Cümhuriyyət dövrünə keçərkən türk toplumunun keçirdiyi dəyişikləri izləmək mümkündür.

"*Kiralık Konak" batılaşmanın sonucu olaraq üç nəsil arasındakı ziddiyyət üzərində qurulmuşdur. "Yaşanan savaşların da təsiri ilə məmləkətin içinə düşdüyü durumu obrazlaşdıran Yakup Kadri Karaosmanoğlu, qələmə aldığı bu romanıda yeni mədəniyyət dairəsinin nəsillər üzərində təsirinə diqqət çəkir.* (Tüzer, 2007, s. 226). Romanın xarakteri Hakkı Celisin, milli dəyərlərinə yadlaşan və sadəcə batılaşmağı əsas dəyər olaraq qəbul edən Seniha obrazının təhlili romanın mahiyyətini qısaca çatdıra bilir:

Seniha abla, bizi bişirən istirabdır, gəzib görmək deyildir.

Sizdən öncə neçə insan Avropaya getdi, gəldi. Bunların bəzilərinin geyimlərində əməlli-başlı dəyişiklik gördüm, ancaq ruhlarında nə dəyişdi, bilmirəm. Bunlar bizə oradan, başlarında əcaib bir sərxoşluq və gözlərində safiyanə bir heyrətlə döndülər."

(Karaosmanoğlu, 1997, s. 164).

Cümhuriyyət dövrü Türk ədəbiyyatında ən güclü sənətkarlarından biri də Əhməd Hamdi Tanpınar (1901-1962) hesab edilir. Onun "*Huzur", "Saatleri Ayarlama Enstitüsü", "Sahnenin Dışındakiler", "Mahur Beste"* adlı romanları, "*Abdullah Efendi'nin Rüyaları"* adlı hekayə kitabları ün qazanıb.

Çağdaş Türk romanının ən önəmli əsərlərindən biri olan "Huzur" Doğu-Batı ziddiyyəti ilə mədəniyyət problematikasını təsvir etmişdir. Tanpınar, şəxsin iç dünyasına, türk toplumunun batılaşma məsələsinə, çağdaşləşmağa, kimlik axtarışına yer vermişdir. Yuxu, zaman, musiqi və sənət, əsərlərinin əsas kəlmələridir.

Samiha Ayverdi (1905-1993) və Safiyə Erol (1902-1964) Türk romanında mistik düşüncənin ən tanınmış yazarlarındandır. Təsəvvüf düşüncəsini əsərlərində təsvir edən hər iki yazıçı mədəniyyətə baxışlarını da romanlarda ortaya qoymuş, tarix bilincinə önəm vermişlər. İki yazarın da əsərlərində *kamil insan* anlayışına uyğun olaraq nəfs tərbiyəsi əsas yer tutur.

"Batmayan Gün", "Yaşayan Ölü", "Mesih Paşa İmamı", "İbrahim Efendi Konağı" romanları Ayverdinin romanlarına örnəkdir.

Erolun isə ən ünlü romanları "*Ciğerdelen"* və "*Dineyri Papazı*"dır. İnsana duyulan eşqin mütləq həqiqətə qovuşmada bir mərhələ olması əsərlərinin ana xəttini təşkil edir.

"Eşqin ödülü artıq tək vasitəyə möhtac qalmadan eşqi yaşaya bilməkdir. Vasitələr yaraşıqsız, sevgililər duman misali qaçaqdır. Adam gedə bilər; yetər ki, onun gözlərindən keçərək dəyişmiş ədəbiyyət şöləsi üzərimdən əksik olmasın" (s. 325) deyən Erol (2010), sevginin sağaldıcı, şəfaverici, insanı daha müdrik edən yönlərini təsvir etmişdir.

Postmodern Türk romanının ən önəmli nümayəndələri arasında Oğuz Atay (1934-1977) özəl yer tutur. Çağdaş şəxsiyyətin içdünyasını müxtəlif üsullarla ortaya çıxaran yazıçı "tutuna bilməyən" şəxsin çarəsizliyini əsərlərində təsvir etmişdir. "*Tutunamayanlar", "Təhlükəli oyunlar"* ən tanınmış romanları; "Q*orxuyu bəklərkən"* isə hekayələrin toplandığı əsərin adıdır... "*Təhlükəli oyunlar*"da (2015) "harda olursan ol, bir insanın üstünə bu qədər yaşantı yığılsın, bir başqası onlardan bir şey çıxarmasın, mümkünmü?" (s. 56)

deyən Atayın ifadə etdiyi kimi, “bu qədər həyat, bu qədər əsər “onlardan bir sonuc çıxarmaq” üçün deyilmi? Türk ədəbiyyatının “klassik şah əsərləri”nə çevrilən bu sənətkarların yaradıcılıq örnəklərinin bizi götürəcəyi yol, mütləq şəkildə işığa doğrudur.

Milli birliyin ən vacib dayaqlarından biri də, şübhəsiz ki, ədəbi kültürdür.

Geniş Türk coğrafiyasındakı türk xalqları ədəbiyyatlarının bir-birinə tanıdılması və ədəbi əlaqələrin yaxınlaşması türk milli birliyinə öz töhfəsini verəcəkdir. Belə bir mübarizənin sonucu kimi, hər türk toplumunun ədəbiyyatı, digərlərindən aldıqları ilham və təsirlə zənginləşəcək. Bu ədəbi yaxınlığı təmin etmək məqəsdi ilə Türk Dünyasında qarşılıqlı ədəbi çevirmə çalışmaları sistemli şəkildə sürətləndirilməlidir.

Bundan başqa, bu cür toplantıların da təsiri çox önəmlidir. Türk Dünyası ədəbiyyatının inkişafının Türk milləti tərəfindən bilinməsi və öyrənilməsi, Türk ədəbiyatının dünya ədəbiyyatında layiq olduğu mövqeni qazanmasında önəmli rol oynayacaqdır.

Qaynaq:

Atay, Oğuz (2015). Tehlikeli Oyunlar. 33. Baskı. İstanbul: İletişim.

Beyatlı, Yahya Kemal (1974). Kendi Gök Kubbemiz. 5. Baskı. İstanbul: İstanbul Fetih Cemiyeti.

Çamlıbel, Faruk Nafiz (1995). Han Duvarları. İstanbul: Millî Eğitim Bakanlığı.

Çetin, Nurullah (2013). Yahya Kemal Kitabı. Ankara: Akçağ.

Emil, Birol (1997). Türk Kültür ve Edebiyatından-1 / Meseleler. Ankara: Akçağ.

Erol, Safiye (2010). Makaleler. Halil Açıkgöz (Haz.). 3. Baskı. İstanbul: Kubbealtı.

İlhan, Attilâ (2012). elde var hüzün. 8. Baskı. İstanbul: Türkiye İş Bankası.

Karakoç,Sezai (2012). Edebiyat Yazıları I Medeniyetin Rüyası Rüyanın Medeniyeti Şiir. 5. Baskı. İstanbul: Diriliş.

Karakoç, Sezai (2013). Gün Doğmadan. 15. Baskı. İstanbul: Diriliş.

Karaosmanoğlu, Yakup Kadri (1997). Kiralık Konak. 17. Baskı. İstanbul: İletişim.

Korkmaz, Ramazan (2009). Servet-i Fünun Edebiyatı. Ramazan Korkmaz (Ed.). Yeni Türk Edebiyatı El Kitabı 1839-2000. (5. Baskı) içinde (s. 131-182). Ankara: Grafiker.
Nâzım Hikmet (2013). Bütün Şiirleri. 9. Baskı. İstanbul: Yapı Kredi.
Özel, İsmet (1999). Bir Yusuf Masalı. İstanbul: Şûle.
Tanpınar, Ahmet Hamdi (2012). On Dokuzuncu Asır Türk Edebiyatı Tarihi. Abdullah Uçman (Haz.). 19. Baskı. İstanbul: Dergâh.
Tevfik Fikret (1327). Rübâb-ı Şikeste. İstanbul: Tanin.
Tüzer, İbrahim (2007). Kimliklerin Çatıştığı Mekân: Kiralık Konak ve Evini / Evrenini Arayan Nesiller. Bilig. 41, 225-239.
Tüzer, İbrahim (2014). Ahmet Mithat Anlatılarında Kimlik İnşası ve Modernizm. Ankara: Akçağ.
Veli, Orhan (1998). Bütün Şiirleri. 34. Baskı. İstanbul: Adam

MODERN ÖZBƏK POEZİYASI

ŞAHİSTA ARTIKOVA

ÖZBƏKİSTAN

5 avqust 1992-ci ildə Daşkənddə doğulub.
İlk şeirlər kitabı 2011-ci ildə gün üzü görüb.
Hazırda Azərbaycan çağdaş ədəbiyyatından örnəkləri
özbək dilinə çevirir.

Zəngin ədəbiyyat tarixinə əsaslanan özbək ədəbiyyatı dünya səviyyəsində özünəməxsus yer tutur. Çağdaş dövrdə daha da inkişaf etmiş bu ədəbiyyat müxtəlif dövrlərdən başlayaraq, daha da təkmilləşmiş, püxtələşmişdir. Çağdaş özbək ədəbiyyatının ən güclü şairləri olaraq tanınan Abdulla Aripov, Erkin Vahidov, Muhəmməd Yusuf, Xurşid Devran, Həlimə Xudayberdiyeva, Şevkət Rahman, İkbal Mirzə, Zəba Mirzaeva, Batır Ergaş kimi nüfuzlu ədiblərdir.

Çağdaş özbək ədəbiyyatının formalaşmasına töhfə verən ədibləri yazdıqları əsərlərin janrlarına görə qruplaşdırsaq, şeir, roman, qissə və hekayə əsas olmaq üzrə teatr-dram və bədii tərcümə sahəsində ciddi fəaliyyətin olduğunu görmək olar.

Poeziyada ilk olaraq, böyük şair Çolpan xatırlanır. O özbək şeiri üçün bir simvola çevrilib desək, yanılmarıq. Bununla yanaşı, Elbek, Qayreti, Qafur Qulam, Batu, Aybek, Uyğun, Sabir Abdulla, Kuddus Muhammədi, Maqsud Şeyxzadə, Hamid Alimcan, Mirtemir, Osman Nasır, ZÜLFİYYƏ, ŞÖHRƏT, Hamid Qulam, Askad Muxtar, Rəmz Babaxan, ŞÜKRULLA, Kudret Hikmət, Saide Zünnunova, İbrahim Yusupov, Cumaniyaz Cabbarov, Erkin Vahidov, Miraziz Azam, Rauf Pərfi, Şevkət Rahman və digər şəxsiyyətlər özbək poeziyasında ən çox tanınan adlardır.

Qissə və hekayə janrı da özbək ədəbiyyatında önəmli yer tutur. Abdulla Qədiri, Çolpan, Qafur Qulam, Aybek, Abdulla Kahhar, Mirkərim Asım, Said Əhməd, Mirmuhsin, Adil Yakubov, Pirimkul Kadirov, Nasır Fazılov, Ötkir Haşimov, Erkin Məlik, Tahir Məlik, Əsəd Dilmurad kimi yazıçılar bu janrda tanınan imzalardır.

Roman janrında isə Sədrəddin Ayni, Abdulla Qədiri, Çolpan, Aybek, Sabir Abdulla, Nazır Səfərov, Abdulla Kahhar, ŞÖHRƏT,

Hamid Qulam, Səid Əhməd, MİRMUHSİN, Adil Yakubov, Pirimkul Kadirov kimi yazıçılar yetişmişdir.

Özbəkistan xalq şairi, Özbəkistan qəhrəmanı, birinci və ikinci dönəm millət vəkili, şair və yazıçı Abdulla Aripov yaşayan ən böyük ədiblərdən biridir. XX yüzilin özbək dili və ədəbiyyatının inkişafında onun önəmli rolu var.

1963-1969-cu illərdə "Yoş Qvardiya" ("Gənc Qvardiya"), 1969-1974-cü illərdə "Qafur Qulam nəşriyyatı"nda redaktor vəzifəsndə çalışan Abdulla Aripov "Şərq ulduzu" və "Gülhan" dərgilərində də çalışmışdır.

Özbəkistan Yazıçılar Birliyində də fəaliyyət göstərən ədibin 1965-ci ildə birinci şeir kitabı "Mitti Yulduz", sonra isə "Ko'zlarim Yo'lingda" (1967), "Onajon" (1969), "Chashma", "Ruhim" (1971), "O'zbekiston", "Qasida" (1972), "Xotirot" (1974), "Yurtim Shamoli" (1974), "Hayrat" (1979), "Hakim va Ajal" (1980), "Najot Qal'asi" (1981), "Yillar Armoni" (1983) "Ishonch ko'priklari" (1989), "Munojot" (1992), "Dunyo" (1995) şeir kitabları işıq üzü görmüşdür.

1996-cı ildə yayımlanan "Haj Daftari" adlı şeir kitabında dini motivlər sezilməkdədir. Şair Özbəkistanın müstəqillik himninin də müəllifidir. Abdulla Aripov həmçinin dastan janrında da qələmini sınamışdır.

"Jannatga Yo'l", "Hakim va Ajal" dastanları ilə yanaşı, Əmir Teymur üçün yazılan "Sohibqiron" dastanı oxucular tərəfindən rəğbətlə qarşılanmışdır.

Müstəqillik dövrü özbək ədəbiyyatının ən önəmli şairlərindən biri hesab edilən Erkin Vahidov çağdaş milli ədəbiyyatımızda önəmli yer tutub. Onun ən böyük özəlliklərindən biri də klassik şeirə və keçmişə verdiyi dəyəri indiki dövrümüzün yaşam tərzi ilə sintez edərək oxucuya fərqli bir şeir dilində təqdimatıdır. Ona görə də insan və toplum mövzusu onun şeirlərinin əsas məzmununu təşkil edir. Şairin təvazökarlıq haqqında yazdığı şeir xalq arasında bir aforizm kimi geniş yayılıb:

Garchi shuncha mag`rur tursa ham,

Piyolaga egilar choynak.
Shunday ekan, manmanlik nechun,
Kibru havo nimaga kerak?

Kamtarin bo`l, hatto bir qadam
O`tma g`urur ostonasidan.
Piyolani inson shuning-chun
O`par doim peshonasidan.

Bu şeirdə müəllif çaydanın nə qədər qürurlu olsa da, stəkan qarşısında əyildiyini, stəkanın isə təvazökarlığına görə başa qaldırıldığını ifadə edir. Bu cür bənzətmə ilə şair öz ədəbi ustalığını göstərmişdir.

Erkin Vahidov şeirlərində həcv və istehza da önəmli yer tutur.

"Manfaat falsafasi", "Sen menga tegma", "Majlis qiling", "Donish qishloq latifalari" kimi şeirləri buna örnəkdir. Erkin Vahidov dastan janrına da müraciət etmişdir.

"Nido", "Ruhlar isyoni", "İstambul fojeasi", "Toshkent sadosi", "Quyosh maskani", "Buyuk hayot tongi" kimi ədəbi örnəkləri (– dastanları), ortaya qoyduğu əsərlər arasında yer alır. Erkin Vahidov "Nida" dastanını II Dünya müharibəsində itirdiyi Cho'yanboy Vohidovun xatirəsinə ithaf etmişdir. Bu əsər özbək məktəblərində dərs kitablarında da yer alır.

Özbəkistanın ən ünlü xalq şairlərindən biri olaraq göstərilən və çağdaş dövrün yetişdirdiyi istedadlı şəxs Məhəmməd Yusif böyük padşah və şair Zehiriddin Muhammed Babur yurdu olan böyük Əndicandandır. Bir çox şeirlərində Baburu mədh edən şair, 29 iyul 2001-ci ildə Baburla eyni taleyi paylaşmış, 47 yaşında ürək tutmasından vəfat etmişdir. Müxtəlif qəzet və mətbəələrində işləmiş Məhəmməd Yusif 1996-cı ildə "Dostluq" ödülü, 1998-ci ildə Özbəkistanın Xalq Şairi adına layiq görülmüşdür. Məhəmməd Yusifin "Tanish Teraklar" (1985), "Bulbulga bir qapim bor" (1987), "İltijo" (1988),"Uyqudagi Qiz" (1989), "Halima Enam Allalari" (1989), "İshq Kemasi" (1990), "Ko'nglimdagi Yor" (1991), "Bevafo Ko'p Ekan" (1991), "Erka Kiyik" (1992), "Yolg'onchi Yor" (1994),

“Osmonimga Olib Ketaman” (1998) “Saylanma” (2001) kimi əsərləri işıq üzü görmüşdür. Məhəmməd Yusif şeirlərində incə bir duyğu hiss edilir. Vətən sevgisini fərqli şəkildə tərənnüm edir. Onun vətən haqqında ən ünlü şeiri ‘Uluğımsan Vatanım’ şeiridir. Şeirdə tərənnüm edilən incə və dərin duyğular oxucuların qəlbinə hopmuşdur. Şeir ustalıqla yazılmaqla yanaşı, onun hər bəndində özbək xalqının tarixinin ən acı və qaranlıq günləri canlandırılıb. Şeirin ilk misraları özbək xalqının müstəqillikdən sonrakı xoşbəxt və məsud dövrünü təsvir edir:

Men dunyoni nima qildim,
O`zing yorug` jahonim,
O`zimga bek,
O`zim sulton,
Sen taxti Sulaymonim...

Özbəkistan müstəqilliyini əldə etdikdən sonra, istiqlaliyyətə, suverenliyə qovuşdu, şair bunu izah etmək üçün özünü sultan adlandırır. Sonrakı misralarda Türküstanın tarixini, düşmənlərlə mübarizə aparan cəsur xalqı tərənnüm edir:

Sen Ho`jandsan,
Chingizlarga
Darvozasin ochmagan,
Temur Malik orqasidan
Sirdaryoga sakragan,
Muqannasan qorachig`i
Olovlarga sachragan,
Shiroqlarni ko`rgan cho`pon
Cho`lig`imsan, Vatanim.

Şair Çingizin hücumu dövründə son nəfəsinə qədər döyüşən Hocand şəhərinin sakinlərini, onların başçısı Temur Məliki, ərəblərin hücumuna qarşı döyüşən, məğlub edəndə ərəblərin əlində ölməmək üçün özünü peçə atan Mukannayı, farsların hücumunda isə təkbaşına 300 əsgəri bozqır çölə apararkən ölümlərinə səbəb olan Şırağı qələmə alarkən, özbək tarixindəki cəsur, yenilməz insanlara

dəstək olan xalqı, bu cür qəhrəmanları böyüdən torpağı Vətən olaraq qəbul edir.

Türküstanın dağılmış xalqını təsvir edərkən Vətən üçün canını fəda edən böyük şəxsiyyətlərin adlarını çəkir:

Kim Qashqarni qildi makon,
Kim Enasoy tomonda,
Jaloliddin – Qurdistonda,
Boburing – Hindistonda,
Bu qanday yuz qarolig` deb
Yotarlar zimistonda,
Tarqab ketgan to`qson olti
Urug`imsan, Vatanim…

Ömrünün sonuna qədər vətən həsrəti ilə yaşayan baburilər nəslindən olan Babur şahı, son damla qanına qədər savaşan Cəlaləddini, Sibir meşələrində sovet repressiyasına məruz qalmış Osman Nasiri şeirdə vəsf edərkən, dağılan doxsan altı soydaşı – yəni ayrı düşmüş türksoylu qəbilələri, parçalanmış dövlətləri təsvir edir…

Özbək tarixində cəsur, vətənpərvər insanlarla yanaşı, xainlər də olmuş və onların üzündən vətənin üzərinə qara buludların dolaşdığı günlər olmuşdur. Şair sovet dövründə gerçəkləşdirilmiş "təmizlik hərəkatı" qurbanı olan yazıçılardan biri özbək romançılığının ilk təmsilçisi Abdulla Qədiridən də bəhs etmişdir:

O'tgan kuning - o'tgan kundir,
O'z boshingga yetgan kun,
Qodiriyni bergan zamin,
Qodiriyni sotgan kun.
Qo'lin bog'lab,
Dilin dog'lab,
Yetaklashib ketgan kun,
Voh bolam! deb aytolmagan
Dudug'imsan, Vatanim...

Burada şair Qədiri və onun kimi vətənsevər şair yazıçıları satan "şairlər"ə işarə edir. Abdulla Qədirinin "Ötən günlər" kitabından sonra onun ölüm fərmanı verilmiş, bunun üçün "dəlillər"i özünü şair adlandıran xainlər sovet hökümətinə təqdim etmişdir. Ona görə də Məhəmməd Yusif Qədirini verən ölkə, Qədirini satan gün deyir. Əlini bağlayıb apararkən "ah, balam" deyən analardan bəhs edərkən vətənin acı günlərini yada salır.

Şeirin sonunda şair vətəni "boynumdakı tumar və mənim qürurum" adlandırır. Onun vətən haqqında bütün şeirləri bu cür incə duyğularla yazılmışdır. Duyğu və hissləri həmişə ön planda olan şairin sevgi haqqındakı şeirlərində də bu öəllik saxlanmışdır:

Osmon cho'kib qoldi bu oqshom,
Yulduz bo'lib yog'ildi bir sas.
Bir mahalla nigohni ko'rdim:
Yashash kerak,sevish shart emas.

Yaşamaq şərtdir, sevmək lazım deyil – deyə öncə insanların düşüncələrini, özlərini uydurmuş qanunu söyləyərkən, sonradan "sevmək şərt, yaşamaq lazım deyil" – deyə həyatın bütün qanunlarına isyan edir:

...Men olovga otarman endi,
Yuragimni qiyma-qiymalab...
Yonib ketsin chirsillab qalbim,
Sevish kerak...yashash shart emas.

Çağdaş özbək ədəbiyyatının sahəsi çox genişdir. Çağdaş dövrdə Azərbaycan və Özbəkistan ədəbi münasibətləri daha çox inkişaf edir. Çağdaş Azərbaycan ədəbiyyatından olan bir sıra şair və yazıçıların əsərləri özbək türkcəsinə uyğunlaşdırılır, dövri mətbuatda dərc edilir. ANAR, Ramiz Rövşən, Kamal Abdulla, İbrahim İlyaslı, Əkbər Qoşalı, gənc ədəbi nəsildən Sərvər Kamranlı, Günay Həsənli, İntiqam Yaşar kimi şairlərin yaradıcılıq örnəkləri özbək ədəbi qəzet və dərgilərində işıqlandırılıb.

Bununla yanaşı, özbək şairlərin də poetik örnəkləri Azərbaycan dilinə uyğunlaşdırılır. Bu Azərbaycan və Özbəkistan ədəbi münasibətlərində irəliləyişin bir göstəricisidir.

HAZIRKI QAZAX POEZİYASI
ҚАЗІРГІ ҚАЗАҚ ПОЭЗИЯСЫ

SAYAT KAMŞIGER
QAZAXISTAN

Semey vilayətinin Kezensu kəndində doğulub. Abay adına Universitetin (KazNPU) məzunudur. Qazaxıstan Yazıçılar Birliyinin üzvüdür. Hazırda Almatıda yaşayır.

Семей облысының Кезеңсу ауылында дүниеге келген. Абай атындағы ҚазҰПУ-дің Қазақ филологиясы факультетін үздік аяқтаған. Қазақстан Жазушылар одағының мүшесі. Алматы қаласында тұрады./

Түркі халықтарының тарихы, тағдыры, жан дүниесі ұқсас, әдебиеттері де ортақ. Ортақ құндылықтарды аялап, сақтаудың арқасында рухани тұтастықты сақтап қала аламыз. Қазіргі қазақ поэзиясы бауырлас елдер әдебиеттерімен иықтірестіре қатар өсіп, бірге дамып келеді.

Танымал ақын Ғалым Жайлыбайдың «Қара орамал» дастаны шоқтығы биік көркем дүние. Бұл қатардағы көп дастандардың бірі емес, ұлтымыздың тарихындағы қаралы жылдарды, аласапыран уақыттағы трагедияны жан-жүрегімен тебірене жырлаған жаназа жырындай. Ақындар Олжас Сүлейменов, Мұхтар Шаханов, Нұрлан Оразалин, Марфуға Айтхожина, Темірхан Медетбек, Исраил Сапарбай, Иран-Ғайып, Сейфолла Оспанов, Тұрсынзада Есімжанов, Зейнолла Тілеужанов, Несіпбек Айтов, Жүрсін Ерман, Есенғали Раушанов, Серік Тұрғынбекұлы, Серік Ақсұңқарұлы, Байбота Серікбай, Аманхан Әлім, Мейірхан Ақдәулетов, Тыныштықбек Әбдікәкімұлы, Қазыбек Иса, Шәмшия Жұбатова, Гүлнар Салықбай, Серікжан Қажи, Темірғали Көпбаев, Мұратбек Оспанов, Кәдірбек Құнпияұлы, Маралтай Райымбекұлы, Жарас Сәрсек, Бақытжан Алдияр, Әлібек Шегебайдың, Саят Қамшыгердің, Танакөз Толқынқызы, Ұларбек Дәлей, Азамат Тасқараның, т.б. ақындардың баспасөз беттерінде жарияланған

жырлары өлең сүйер оқырманға жақсы әсер қалдырғаны анық. Бұл ақындардың жыр жинақ, кітаптары да оқырман қауым тарапынан сұранысқа ие. Рафаэль Ниязбеков, Жәркен Бөдеш, Ұлықбек Есдәулет, Әділғазы Қайырбеков, Қасымхан Бегманов, Әбубәкір Қайран сияқты ақындар да қазақ поэзиясының көшін алға сүйреп келе жатыр.

Осы орайда "**Жан қалқа...**" атты.**Есенғали Раушановтың жырынан үзінді келтіре кеткенді жөн санаймын:**

Жан қалқа, жылдар өтті, айлар өтті,
Ызғырық қойды жұтып майда лепті.
Тұратын қасымызда қасынысып,
Күз деген күрең тайым қайда кетті?

Ол жазған жалғыз қалды -
мұңдасы жоқ,
Сен келіп сыр айтпайсың
"тыңдашы" деп.
Шылбырын сағыныштың
беліме орап,
Мен кеттім бір соқпақпен
бұрмасы көп.
Осынау басымдағы сор-бағыммен,
Кезім көп жол екен деп орға кірген.
Қай жаққа бастайсыңдар енді бізді,
Күндер-ай күрең қасқа
жорға мінген.

Міне, бұл жыр жолдары қазақтың ұлттық өлеңіне мысал бола алады. Бұл - ұлттық өлең. Қоғамдық көпшілік ортада қазіргі жастар поэзиясының белді өкілдері деп біршама ақындар аталады. Олардың қатарында Олжас Қасым, Серікбол Хасан, Тоқтарәлі Таңжарық, Ырысбек Дәбей, Ақберен Елгезек, Ерлан Жүніс, Ықылас Ожай, Ерғали Бақаш, Қалқаман Сарин, Бауыржан Әліқожа, Серік Сейітман, және т.б. бар. Бұл ақындарды кейбір зерттеушілер қазақ поэзиясындағы "Керіағыс" өкілдері

деп атайды. Себебі, олардың өлеңдерінен жаңашылдыққа деген ұмтылыс менмұндалап тұрады. Жаңашылдық түр, қалып жағынан да, мазмұн, идея жағынан да қатар байқалады. Мұндай құбылыстар әр кезекте әдебиеті биік шыңды бағындырған елдердің туындыларында кездеседі.

Постмодернистік поэзия Еуропада XIX ғасырда құбылыс жасаса, қазақ поэзиясында оған алғашқы қадамды жасаған ақын Тыныштықбек Әбдікәкімов болып саналады. Ал жастар поэзиясын жаңашыл деп атауымыз, олардың ішінде постмодернистік сарынға бейім және дәстүрлі бағыттағы шығармалары сол үдеден көрініп отыр.

Ақында немесе жазушыда өзіндік стиль қалыптасқан кезде ғана оның шығармасында жаңалық болады. Жаңалық – ізденістің, көп білімнің жемісі. Жаңашыл сипатқа ие болған шығармада бұрынғы дүние өзгеше көрініп, өзінше өріліп беріледі. Мәселен, қазақ поэзиясында жалпы дүниенің жырланбаған тақырыбы жоқ десек те болады. Бірақ, дәуір-дәуірімен, заман ағымымен поэзия да бір затқа түрліше мазмұн беру үрдісі жалғасып, поэзияның дамып, өскенін байқатып отыр.

Қазіргі қазақ жастар поэзиясының барынша мақтауға лайықты тұстары шаш етектен. Өйткені, олар өлең құрылысы мен идеяны жеткізу жолдарын ерте меңгеріп, әдебиетте эксперимент жасап та үлгерді. Ал Ұларбек Дәлейдің жырларынан Күлтегін, Тонықөк жырларындағы өрлік пен жыраулар поэзиясындағы ұлттық рух жаңаша бой ұрады. Тараздық шайыр Табиғат Абаилдаевтың қаламынан алғаш эксперименттік күңгірт жырлар пайда болса, бүгінде тамаша туындылар туылуда. Қалай болса да болашаққа үлкен мұра қалдыратын қазақ жастар поэзиясы ертеңгі аға буынның ізін басар лек екенін ұмытпайық. Бұл тізім жалғаса беретіні де анық. Өйткені, дүние есігін өлеңмен ашқан жұрттың өмірін өлеңге арнаған жастары толастамайды.

Кейінгі жылдары Қазақстанда “Түрік поэзиясы” бір бөлек кітап болып жарық көргені көңіл қуантады. Түрік елінің қазіргі

ақындарын бүгінгі қазақ ақындары кереметтей етіп аударып, осылайша жинақ етіп шығарғаны тамаша болды. Осындай аударма кітапттарды енді туысқан әзірбайжан, өзбек, қырғыз, башқұрт, татар, түрікмен, ұйғыр, гагауз сияқты тілдерден тәржіма жасап, баспадан шығару өзекті мәселе болып тұр. Халықаралық әдеби іс-шараларды көбірек өткізсек, әр елдің ақын-жазушылары дос ретінде тығыз байланыс жасаса, бір-бірлерінің шығармаларын аударса, өз халқына түркі дүниесінің жауһарларын танытуға үлес қосуға атсалысса, міне, әдеби байланыстар осылайша жандана түсетіні рас.

Қазақ әдебиетіндегі поэзияның орны ерекше. Заман ағымымен дамып келе жатқан поэзия жиырма бірінші ғасырда да үздік үлгі көрсете білсін!

KALİÇA JAKIP

1984-cü il noyabrın 1-də Qırğız Respublikasının Narin bölgəsində doğulub. Qırğız Aqrar Universitetinin məzunudur. "Euphoria" kitabının müəllifidir. "Topurak demi" kitabını qazaxcadan qırğızcaya uyğunlaşdırıb. "Nurborbor" Gənc Yaradıcılar Akademiyasının üzvüdür. "Beine önör" respublika yarışmasının "Mahnı sözləri" ödülü sahibidir (Bişkək – 2015)

ÇAĞDAŞ QIRĞIZ ŞEİRİ

Xalq arasında "sənətkar ölməz" deyirlər. Bu sözdən sənətə nə qədər böyük önəm verildiyi hiss edilir. Fərqli sənət sahələri arasında xalqımızın özəl dəyər verdiyi hadisələrdən biri də poeziyadır.

Qırğız ədəbiyyatının və onun içində qırğız şeirinin SSRİ dövründəki durumu o dövrdəki qırğız poeziyasının önəmli isimlərindən Alıkul Osmonov, Turar Kocomberdiev, Jolon Mamıtov və digər şairlərimiz, onların əsərləri çoxlarına bəllidir.

SSRİ dövründə qırğız poeziyasını çağdaş dövrlə müqayisə etsək, deyə bilərik ki, o dövrdə toplum rejimin siyasi, tək partiyaya əsaslanan ideologiyaya əsasında formalaşmışdır. Bu o deməkdir ki, şeir o dövrün siyasəti və kommunist ideologiyasının təsiri altında olmuşdur. Sovet hökuməti tərif, siyasi olaylara töhfə vermək, SSRİ tərkibində olan xalqların dostluq və qardaşlığını möhkəmlətmək, kommunizmi mədh etmək üçün xalq şairlərinə təzyiq etmişdir; ancaq bununla belə, şairlərə dövlət tərəfindən dəstək verilmiş, onların kitabları dövlət hesabına dərc edilmiş, şeirləri dövri mətbuatda; qəzet və jurnallarda işıq üzü görmüş, digər dillərə çevrilmişdir.

Bu yazıda SSRİ-nin süqutundan sonra müstəqil Qırğız Respublikası dövründə çağdaş qırğız ədəbiyyatının tərkib hissəsi olan qırğız poeziyasının çağdaş durumu haqqında bir az bilgi vermək istəyirəm.

Qırğız şeiri müxtəlif ədəbi nəslə mənsub şairlərin dəstəyi ilə püxtələşmiş və zirvəyə qalxmışdır. Hələ 1991-ci ildə SSRİ-nin dağılmasıyla müstəqil qırğız dövləti quruldu.

Qırğız Respublikasının müstəqilliyini elan edilkdən sonar, hər bir vətəndaş üçün önəmli azadlıqlardan olan siyasi, mənəvi və söz azadlığına da sahib olundu. Bu dəyişikliklə yanaşı, qırğız poeziyasında da dəyişikliklərə müşahidə olundu. Bundan öncəki şairlərin şeirləri yeni üslubda olmaqla, köhnə ideoloji və siyasi mövzulardan uzaqlaşmış, əksinə insan taleyi, duyğuları, keçmişi və bugününü dəyərləndirmiş, gələcəyə realizm gözü ilə baxmış, həyatdakı təzad və çətinliklər, insan psixologiyası və sosial problemlər ön plana çıxmışdır; vətənsevər şeirlər, sevgi və bir mözu ilə məhdudlaşmayan şeirlər də yazılmışdır.

Müstəqillikdəsn sonrakı yeni qırğız poeziyasını iki dövrə bölmək olar;

- *1991-2000-ci illər;*
- *2000-ci il və sonrakı dövr.*

1991-ci il sonrası dövr şeirində tarix və nəsil dəyişimi bu dövrün şairlərinin fəaliyyəti ilə üst-üstə düşmüşdür. Məsələn, Şailoobek Duyşeev, Kyalbek Urmanbetov, Akbar Rıskulov, Kalçoro Kökulov, Cirgalbek Kasabolotov, Nurlan Kalıbekov, Elmira Acıkanova, Zairbek Acımatov, Oljobai Şakirov və digərləri buna misaldır. Bu şairlərin həyat və ədəbi fəaliyyətlərində fərqli özəlliklər, mövzu və üslubdakı yeniliklər aydın sezilməyə başlanmışdır.

Bundan başqa, bu nəslin digər özəlliyi onların sövet dövründən qalma təhsili, dünya ədəbiyyatını orijinaldan deyil, ruscadan tərcümə edilmiş kitablardan oxumalarıdır. Ancaq müstəqillik dövründən sonrakı illərdə dünya və Şərq ədəbiyatını orijinaldan mənimsəməyə diqqət artmışdır. Məsələn; Jigitov, Akmatbekova kimi şairlərimiz bu əsərləri orijinaldan qırğızcaya tərcümə etməklə, bədii tərcümə sənətinə töhfə vermişlər.

2000-ci illər və sonrakı dövr şairlərdən Aijarkin Ergesova, Manas Alymbayev, Rispay Isakov, Narsuluu Qurqubay, Altinbek İsmail, Cildizbek Tursunbay, Jazgul Jamangul və digərlərinin adını çəkmək olar. Onların şeirlərində sevgi və vətənsevərlik lirikası, mənzərə və

fəlsəfə, kənd və şəhər, qafiyə və sərbəst şeir üslubunun inkişaf etdiyini görürük.

Müstəqillik dövründən sonra gənclər arasında milli mövzularda olan şeirlərə önəm verilmiş, vətənpərvərlik şeirləri daha çox yazılmağa başlanmışdır.

Ancaq bu nəsillərin qarşılaşdıqları bir sıra problem mövcuddur. SSRİ-nin dağılmasından sonra ökələrin qarşılaşdıqları iqtisadi tənəzzül, yoxsulluq nəticəsində kifayət qədər keyfiyyətli təhsil ala bilməyən gənc nəsil nümayəndəlri ancaq istedadları ilə məhdudlaşmışlar. Bir çoxlarının dünya ədəbiyyatından xəbəri yoxdur. Üstəlik bu nəsillər əcnəbi dili yetərli səviyyədə bilmədiyinə görə, dünya ədəbiyyatına laqeyd qalmışlar. Dünya ədəbiyyatını oxuyanlar çox az idi.

Ancaq son 5 il müddətində dünya ədəbiyyatı və türk xalqları ədəbiyyatına maraq artmış, sonucda bəzi şairlərin əsərlərinin tərcümələri kitab olaraq yayınlanmışdır.

Gənc şairlərin digər özəlliyi odur ki, qabiliyyətlərini şəxsi olaraq, inkişaf etdirməyə cəhd edirlər. XX yüzilin 90-cı illərindən sonrakı ilk nəsil şairlərlə orta nəsil şairlər arasında sənət əlaqələri zərifləmişdir. Sonucda şair məktəbi ortadan qalxmışdır; ancaq bu problemi kökündən həll etmək məqsədi ilə gənc nəsil şairlər "Nurborbor", "Jiger" kimi ədəbi birliklər quraraq respublika səviyyəsində festival və müsabiqələr təşkil edir.

Yuxarıda qeyd edilən iki nəslə aid ortaq problemlərdən bəhs etmək yerinə düşər:

Medalın iki üzü olduğu kimi burda siyasi və mənəvi hürriyyət indiki iqtisadi (ağır!) şərtlərə, bazar iqtisadiyyatına keçidlə bağlı çətinliklər və ədəbiyyatdakı şərtlər sonucunda kitab çapı, televiziya, qəzet və dərgilərə verilən reklamın azaldığını müşahidə edirik.

Bu tarixi dövr davam edərkən, şairlərin öz qabiliyyətlərinə əsaslanaraq, xalqın səsini əsas tutub fəaliyyətlərini davam etdirmələri önəmlidir.

Şairlər arasında sənətkarlıq baxımdan rəqabətdə keyfiyyət hiss edilməkdədir. Şairlər kitablarının dizaynı və çapı, bazara təqdim edilməsi və satış işləri ilə özləri məşğul olurlar. Bundan başqa

oxucularla şairlər arasındakı sistematik əlaqənin dağınıq olmasına görə, kitabların reklam edilməsi və tanıtımı da şairlərin üzərinə düşür.

Kitablara tələbatın az olmasına görə, onların tirajı 500 və ya 1000 arasında dəyişir.

Digər bir problem isə ədəbiyyatda poeziyanın inkişafına dəstək verən ədəbi tənqidin müstəqillik dövründən sonra az olmasıdır. Şairlərin əsərləri təhlildən, yeniliklərdən uzaqdır, dağınıq formada yazılan şeirlərə də rast gəlmək mümkündür. Ona görə də oxucular seçim imkanı olmadan bu əsərləri oxuyurlar...

Bütün bu problemlərə baxmayaraq, qırğız poeziyasının nümayəndələri dövlətdən bir dəstək gözləmədən, əski nəsil şairlər türk xalqlarından olan həmkarları ilə birlikdə əməkdaşlıq edir, ədəbiyyat, poeziya adına bir sıra ədəbi fəaliyyətlər gerçəkləşdirirlər. Qısacası, ölkədəki iqtisadi sıxıntılara baxayaraq, qırğız poeziyası inkişaf etməkdədir.

Milli poeziyanın gələcəyi olduqca parlaqdır və zaman keçdikcə zirvələrə doğru addımlayır.

BAŞQURD ƏDƏBİYYATINDA VƏTƏNDAŞLIQ LİRİKASI

БАШҠОРТ ӘҘӘБИӘТЕНДӘ ГРАЖДАНЛЫҠ ЛИРИКАҺЫ

AYGİZ BAYMUXAMMET
BAŞQURDİSTAN
Yazıçı-publisist, Şeyxzadə Babiç adına Dövlət ödülü laureatı.
Яҙыусы һәм журналист, Шәйехзада Бабич исемендәге дәүләт йәштәр премияһы лауреаты.

Башҡорт халҡының әҙәби мираҫы ифрат бай. Төрки халыҡтары менән бер рәттән, 5-12 быуаттарға ҡараған боронғо төрки яҙма ҡомартҡылар: Орхон-Йәнәсәй рун яҙмалары, Й.Баласағуниҙың “Ҡотаҙғу белек” китабы, М.Ҡашғариҙың “Диуану лөғәт әттөрк” һүҙлеге, Ә.Йүгнәкиҙең “Хибәт әлхаҡаиҡ” әҫәре, киң билдәле “Ҡорҡот Ата китабы “(“Китабе дедеи Ҡорҡут”) – барыһы ла хаҡлы рәүештә башҡорттарҙың да рухи хазинаһы булып тора. Урал-Волга төрки халыҡтары өсөн уртаҡ булған Ҡол Ғәлиҙең “Ҡиссаи Йософ” поэмаһы, Ҡотбиҙың “Хөсрәү үә Ширин”, Харәзмиҙең “Мөхәббәтнамә”, Хөсәм Кәтибтең “Жөмжөмә солтан” әҫәрҙәре, С.Сараиҙың “Гөлостан бит-төрки” һәм “Сөһәйел үә Гөлдөрсөн” урта быуат поэмалары башҡорт әҙәбиәте рухи хазинаһына инә. 16-19 быуаттарға ҡараған күп төрлө ҡомартҡылар: башҡорт шәжәрәләре, тәуарихтар, тарихнамәләр – үҙенсәлекле әҙәби мираҫ өлгөләре.

Ниндәй генә заманда ижадсылар йәшәмәһен – уларҙа гражданлыҡ позицияһы айырыуса урын биләй. Рәсәй дәүләте менән берлектә булғас, үҙ-ара мөнәсәбәттәр, илгә, телгә, милләт яҙмышына борсолоуҙар һәр быуын әҙибенең ижадында ярылып ята.

Башҡорт халҡының милли батыры һәм шағиры, 1773-1775 йылдарҙағы Крәҫтиәндәр һуғышының ғәскәр башлығы **Салауат Юлаев**тың (1754-1800) ижады – әҙәбиәтебеҙҙең сағыу бер бите. Шағир булараҡ Салауаттың ҙур ҡаҙанышы – ауыҙ-тел

һәм яҙма поэзияның иң һәйбәт традицияларын берләштереп, поэтик һүҙҙе яу ҡоралы сифатында ҡулланыуында.

“Шул бөркөттәй, егет, батыр бул,
Тайғаныңда таян дуҫтарға.
Яуҙа, арыҫландай ажғырып,
Йән аямай ташлан дошманға!” –

тип башҡорт уландарын яуға саҡырған.

Революция осоронда – XX быуат башында йәшәп ижад иткән ялҡынлы бер шағирҙы атап үтер кәрәк. Халҡыбыҙҙың аҫыл улы **Шәйехзада Бабич** бик ҡыҫҡа ғына ғүмер йәшәп өлгөрә, ләкин бай ижади мираҫ ҡалдыра. Ижад менән бер рәттән ул революцияла әүҙем ҡатнаша, Башҡорт автономияһын төҙөүҙә күп кәс һала. Ҡыҙғанысҡа ҡаршы, илдәге болғансыҡ осорҙа ул 24 йәштә генә фажиғәле үлеп ҡала. Ләкин уның ошо юлдары ни тиклем халҡын һөйөүе хаҡында һөйләй:

“Намыҫ өсөн, тәңрем йәндән кисәм,
Килтер вәғәҙә, ҡөҙрәт, ҡулың бир.
Башҡортостан иҫән ҡала, тиһәң,
Бер йәнемә миллион үлем...”

Совет осоронда ижад иткән шағир Рәми Ғарипов – граждалыҡ лирикаһы менән айырылып тора. Әлбиттә, тел, милләт киләсәген хәстәрләп йыш яҙғанға – уға бихисап кәртәләр ҙә ҡуйыла. Хатта тере сағында тейешле хөрмәтте күрмәй, бик күп әҙәрҙәре үлгәндән һуң баҫыла. Ләкин ул халыҡ мәнфәғәтенә хеҙмәт итеүҙе төп бурысы итеп ҡуя. Был ҡыйыу шиғри юлдары ғына үҙе ни тора:

“Батшаларға башын эймәгәнде -
башҡаларға башҡорт баш эймәҫ!”

Шул уҡ телһөйәрлек хисе **Хәсән Назар, Ҡәҙим Аралбай, Рауил Бикбай** кеүек шағирҙарҙың ижадында айырыуса урын биләп тора.

Ә инде Советтар Союзы тарҡалып – Башҡортостан үҙаллылыҡ алған осорҙа яңы быуын әҙиптәре ҡалҡып сыға. Уларҙың да ижадында үҙ халҡының бөйөклөгө, үҙаллылыҡҡа ынтылыуы тематикаһы ҙур урын биләй.

Мәҫәлән, шағир **Рәйес Түләк** илен-ерен һаҡлап яуға сапҡан ата-бабаларыбыҙҙың рухы исеменән былай тип яҙа:

“Ниндәй Рәсәй һуң ул туйыу белмәй
Башҡорт еркәйенә ҡаныҡҡан?
Алтын түгел – беҙҙең һөйәк бит ул,
Нефть түгел – ул бит беҙҙең ҡан!!!”

Йәиһә шағир һәм драматург **Салауат Әбүзәр** Рәсәй дәүләтенең быуын-быуындан килгән сәйәсәтенә әсенеп былай ти:

“Рәсәй!.. Рәсәй!..
Кем әйткәндер: “Әсәй!..”
Ләкин кеше нимә тимәһен –
Беҙ бит һине имеп үҫмәгәнбеҙ,
Ә һин беҙҙе һаман имәһең.”

Гражданлыҡ лирикаһы бөгөнгө замандаштарыбыҙ Лариса Абдуллина, Зөлфиә Ханнанова ижадында ла дауам итә. Улар аҡытында үҙ һүҙен әйтә белеп, халыҡты уяулыҡҡа өйрәтеп торған шағирҙарыбыҙ. Ә бит әҙиптең бит иң төп миссияһы – халыҡты борсоған хәлгә ҡарата үҙ фекерен ваҡытында әйтә биреп барыу. Был йәһәттән башҡорт ижадсылары ниндәй генә ваҡытҡа ҡарамай – дөрөҫ һүҙҙе әйтергә һис ҡурмай. Шундай шағирҙарыбыҙ менән беҙ бәхетле лә.

TATAR ŞEİRİNİN (ƏDƏBİYYATININ) ÖZƏLLİKLƏRİ VƏ TENDENSİYALARI

(“Türkcənin XI Şeir Şölənində gerçəkləşən “Şeir üzrə müzakirə bölümü”nün Sonuc Bildirgəsi)

şairlər **Çulpan ZARİF ÇETİN, Robert MİNNULLİN, Rədif QATAŞ** *tərəfindən hazırlanıb*

Tatar ədəbiyyatı çox erkən yüzilliklərə gedib çıxan bir inkişaf yoluna sahibdir. Tatar türkləri də bütün başqa türk boyları kimi özlərinə aid olan söz sənətinin başlanğıcında Runik yazısı ilə əsərlər yaratmışlar. – Tatar yazılı ədəbiyyatının ilk dövrü olaraq, yaratdığı mədəniyyəti ilə dünya miqyasında şöhrət qazanan İdil boyu Bulqar dövlətinin hökm sürdüyü dövr qəbul edilir. Bu dönəm tatar ədəbiyyatının, tatar şeirinin ən ünlü təmsilçisi, şübhəsiz, Kul Alidir. XIII yüzilliyin ikinci yarısından - XV yüzilliyin ortalarına qədərki tarix – Qızıl Orda dövrü Tatar Ədəbiyyatı olaraq səciyyələndirilir. Bu dönəm tatar ədəbiyyatı Gündoğar və bütün başqa türk boyları ədəbiyyatı ilə birgə inkişaf etdi. Kazan xanlığı dövründə əsərlər yazan bir çox şairin adı isə günümüzə qədər gəlib çatmışdır. Bu gün bu dövr tatar şeirini biz daha çox Kazan xanlığını idarə edən Xan Məhəmməd Əmin, Xan türbəsinin gözətçisi və elçisi Məhəmmədyar, Seyid şair və həm imam, həm də şair olan Kul Şərif ilə xatırlayırıq.

Kazan xanlığı yıxıldıqdan sonra toplum həyatında müşahidə edilən durğunluq çox uzun sürür və özünü yenidən dirçəltməyə başlayan tatar şeirində XVIII yüzilliyin ikinci yarısından etibarən toplumun inkişafını müəyyən edən dünyəvi təhsil modeli və zehni üstün tutan tendensiya yer alır.

XVIII-XIX yüzilliyin ən ünlü şairləri A.Karqalıy, Ş.Zəki, A.Kandalıy, Ağmolla və başqaları olub; bunlar Orenburq, Sterlibaş, Trostik kimi şəhərlərdə və Orta Asiyada yaşayıb əsərlər yazmışlar. Onlar günümüzdə bir çox türk boyunun ortaq şairi sayılırlar.

Örnəyi, Ağmolla həm tatar, həm başqurt, həm də qazax boyları tərəfindən milli şair olaraq qəbul edilmişdir. Eyni durum XX yüzilliyin əvvəlləri tatar şeiri üçün də keçərlidir. Ş.Babiç və Məcid Qafuri kimi şairlər həm tatar, həm də başqurt ədəbiyyatının qürur qaynağıdır. Onu da deyək ki, XX yüzilliyin başlanğıcında tatar ədəbiyyatı artıq yalnız Gündoğara deyil, Günbatara da yönəlməyə başladı. Ayrıca, bu dövr tatar ədəbiyyatı və şeiri, doğrudan doğruya, "Cəditçilik" hərəkatına bağlı fikri-estetik gələnəkləri inkişaf etdirib, Avropanın çatdığı mədəniyyəti də örnək götürərək davam etmişdir. Tatar ədəbiyyatını yeni təməllər üzərində inkişaf etdirmək üçün mətbuatın, kitabın rolu çox böyükdür. Bu dövrdə tatar türkləri hardasa, bütün Türk Dünyasını aydınlatmış, mədrəsələr açmış, dərgi və qəzetlər nəşr etdirmiş və ədəbiyyatda bir çox türk boylarına yön vermək rolunu üzərinə götürmüşdür.

XX yüzilliyin başında tatar şeiri zirvəyə qalxır və tarixinin ən parlaq dövrünü – altın çağını yaşayır. Əruz ilə yazmağa başlayan tatar şairləri yaradıcılıqlarında xalq şeiri örnəklərini də verirlər. Bu dövr tatar ədəbiyyatında həm romantizm, həm realizm, həm də xalqçılıq axtarışlarının ən gözəl örnəklərini görə bilirik. **Təbii ki, bu dövrün ən ünlü və parlaq ismi, qısa həyatında xalqına fədakarcasına xidmət etmiş şair Abdulla Tukay oldu.** Lakin bu dövrdə xatırlanması gərəkən çox özəl yaradıcılığa sahib olan Dərdmənd, Sakit Rəmiyev, Ş.Babiç, M.Qafuri kimi bir çox şairlər də vardır. (Bu dönəmdə yaşayan tatar şairləri Gündoğar və Türk Dünyası ədəbiyyatını orijinal qaynaqlardan oxumuş və özləri də dəyişik türk ləhcələrində, örnəyi, Osmanlı türkcəsi ilə şeirlər yazmağı bacarmışlar.)

1917-ci il inqilabından sonra Sovet ideologiyasına bağlı inkişaf edən tatar ədəbiyyatı bəzi çatışmazlıqlara bəxmayaraq, XXI yüzilliyə zəngin bir miras buraxdı. Lakin bu müddətdə tatar şairlərinin Gündoğar və Türk Dünyası ilə bağlılıqdan xeyli qopuq qalması sonucunda, onlar, qardaş türk boyları ədəbiyyatı və təmsilçiləri ilə ilişkilərdən də qopuq qalmış oldu. Buna baxmayaraq, türk boyları öz şairlərini tatarların ünlü şairi Abdulla Tukay və Taktaşları örnək gətirərək yetişdirməyə davam etdilər. XX

yüzilliyin 20-30-cu illərində Stalin zamanında F.Kərim, H.Tufan kimi bəzi tatar ədibləri kommunizm ideologiyasına meyl etdi.

II Dünya savaşında yaşanan itkilər də tatar ədəbiyyatına və şeirinə böyük təsir etdi. Lakin bunu da demək lazımdır ki, bu savaş zamanında qəhrəman şairlər də ortaya çıxdı. 1941-1945-ci illərdə ən ağır şəraitdə ulduzu parlayan Musa Cəlil buna bariz örnəkdir. Yüzillərdir Gündoğar və Günbatar ədəbiyyatının ən gözəl örnəklərini götürərək inkiaf edən tatar şeiri, keçən yüzilliyin 60-cı illərində S.Hakim, İ.Yuziyev, A.Bayan, Ş.Qaliyev, S.Süleymanova, R.Ahmedcanov, R.Minnullin, E.Şerifullina, R.Feyzullin, R.Qataş, G.Rəhim, R.Xaris kimi fəlsəfi və lirik şeir ustalarının əsərləri ilə yenidən zirvəyə qalxdı. II Dünya savaşı sonrası yetimliyin hüznü ilə atasız böyüyən və şeirlərində əslində heç üzünü görmədikləri ata-larına həsrət qaldıqlarından barış və əmin-amanlıq içində yaşama diləyi bildirən bu nəsildən sonra, 1970-ci, 1980-ci illərdə F.Yarul-lin, Zülfət, M.Aglemov, L.Şakircan, İ.Möeminova, K.Bulatova, A.Xalim, G.Rahim, Nizami, daha sonra R.Zaydulla, H.Eyyub, Ş.Cahangirova, N.Qəmbər, F.Tarxanova, L.Zülqərneyn, G.Murad, Z.Mansurov, R.Rəhman nəsli gəldi. Bu dönəm şeirində əslində hər zaman keçərli olan ortaq mövzular işlənildi: kənd təbiəti, insan könlünün gözəlliyi, əxlaq dəyərləri, yaşam və ölüm haqqında düşüncə, nigarançılıq, eşq və dostluq... Bu dövrdə millətinə sadiq qalıb, könlü ilə günəşi arayaraq yola çıxan R.Ahmedcanov insanların ən incə duyğularını xalq ədəbiyyatı örnəkləri əsasında ortaya çıxaran İ.Yuziyev, Zülfət, M.Ağlam kimi şairləri ilə tatar xalqı hər zaman qürur duydu. – Fəlsəfi şeirləri ilə tanınan R.Feyzullin, sevgi mövzusunda Gündoğar klassik şairlərini ustad olaraq qəbul edən, qəzəl və rübailərində eşqi vəsf edən, Məcnun mi-sali eşq üçün yaradılan şair R.Qataş da o cümlədən...

Ayrıca, tatar şeirində uşaqlar üçün yazan şairlər də çoxdur və toplumun gələcəyini düşünərək ortaya çıxan şeirin bu qanadı heç bir zaman önəmini itirməmişdir. Tukay, Cəlil, Alış kimi uşaqlar üçün əsərlər yazan şairlərin ardından 1960-cı illərdə Ş.Qaliyev, B.Rahmet, R.Minnulllin, A.Feyzi, daha sonrakı dönəmdə G.Giyl-man, R.Korban kimi şairlər bu xüsusda əsərlər ortaya qoydu.

Onlardan R.Minnullin Andersen ödülünə layiq görüldü. H.Tufan, M.Nuğman, İ.Yuziyev, G.Zeynaşeva, S.Süleymanova, R.Minnullin, R.Feyzullin, R.Vəliyev, F.Safin, Ş.Cahangirova, M.Qaliyev kimi şairlərin isə bir çox şeiri sadəcə şeir olaraq yaşamaqla qalmadı, bəstəçilər tərəfindən səhnələrə daşınaraq tatar xalqının könlündə ikinci dəfə yaşam qazandı.

Fəqət, sovet dönəmində tatar şeirində siyasi səbəblərdən mövzular daraldı, şeir xalqa yaxın və anlaşılan olsun deyə bəsitləşdirildi. Millilik gizlənildi, şairlər duyğularını, bir qayda olaraq, "Ezop dili" ilə yazmağa başladı. Klassik şeir ölçüləri yerinə şairlər sərbəst nəzmi üstün tutdu. Gündoğar və Türk Dünyası ədəbiyyatı və mədəniyyəti ilə olan bağlantılar zəiflədi. Bu səbəbdən də, Gündoğar və türk xalqlarının yaratdığı əsərlər yüzilləri adlayan gələnəyə görə orijinaldan oxunmaq əvəzinə, artıq rusca çevrilərdə izlənməyə (oxunmağa) başlanıldı. Nazim Hikmət kimi ünlü türk şairinin şeirlərini, dahi tatar şairləri ruscaya çevrilmiş örnəklərlə tanıdı. Sovet dönəmində də A.İshaki, N.Arslan kimi bir çox tatar şairi Gündoğar ədəbiyyatı klassiklərini orijinaldan tatarcaya çevirməyi bacardı.

Sovet dövründə tatar şairləri şeirə, rus şeiri vasitəsilə Avropa şeirini və onun özəlliklərini daşıdılar. Partiya ideologiyasına bağlılıq səbəbiylə sovet dönəmi tatar ədəbiyyatı mövzu baxımından tamamən rus ədəbiyyatına bənzədi, həm nəzm, həm də nəsr artıq rus ədəbiyyatı təsiri altına düşdü. İdeoloji təzyiq hökm sürdü. Beləcə, tatar şeiri Gündoğar və Türk Dünyasından qopdu və təəssüf ki, ozanlıq, aşıqlıq kimi ən əski dönəmlərdən gələn gələnəklərini itirdi...

Daha sonra, 1990-cı illərdə yaşlı, ustad şairlər öz duyğu və düşüncələri ilə diqqət çəkməyə davam edərkən, artıq gənc nəsil şairləri də onlarla yanaşı, şeirdə öz yerlərini tapmağa çalışdı və bugün onların yazdığı şeirlərə baxdıq da, "bunu bacardılar!" deyə bilərik: İ.İksanova, M.Mirzə, R.Sulti, Süleyman, M.Zakir, R.Aymet, C.Ahtyamova, Tançulpan, Ç.Zarif, R.Camal və başqalarının timsalında yeni nəsil şairlərimiz, 1990-cı illərdən bugünə, çağdaş insanın ruhsal dünyasını təsvir edərək qlobal nigarançılıq və ümidlərə

bağlandılar... Ölkə, xalq və ana dilinin taleyi, dinə dönüş, yaşam və ölümlə bağlı fəlsəfi düşüncələri, ölkədə olub-bitən qarışıqlıqlarla ilgili nigarançılıqları, bəzən ümidsizlik... amma yenə də, gələcəklə bağlı ümidləri duyğulara daşımağa çalışdılar. Yeni dövr tatar şeirində təsvir və fikir birliyi, şeirdə hiss və ağlın bütünlüyü, xalq ədəbiyyatı və Gündoğar kalssik şeir gələnəklərinin canlanması əsas mövzu oldu. Özəlliklə, bir çox tatar şeirində Tatarıstanın müstəqilliyi ümidini də görə bilərik (A.Halim, Zülfət, M.Ağlam, R.Aymet və başqaları). Şeir bu dönəmdə milli ruhu, dili və bərabərliyi qorumaqda çox önəmli bir rola sahibdir və siyasətlə yaxından bağlılıq yoluna girdi, deyə bilərik. Deyə bilərik ki, tatarların bir millət olaraq qalmasına şeir (ədəbiyyat) düşüncə öncüllüyü etdi... Bu hal, tatar şeirində şairin taleyi ilə millətin taleyinin birgə inkişaf etdiyini bir daha sübut etmiş oldu. Artıq bu dövrdə Türkiyə, Gündoğar və Türk Dünyası ilə ilişkilər yenidən canlanmağa və qüvvətlənməyə başladı, bir çox tatar şairi bu illərdə ən ünlü Gündoğar və Türk Dünyası ədəbiyyatı klassiklərinin, çağdaş şairlərin əsərlərini tatarcaya çevirdilər.

Uluslararası Şeir Şölənləri 1990-cı illərdən günümüzə qədər türk boylarının ən üzdə olan şairlərini bir araya gətirib, öz xalqının ədəbiyyatını tanıtmalarında və başqa xalqların ədəbiyyatını tanımaqda önəmli rol oynamağa başladı. Türkiyə Cümhuriyyətinin bir çox məsələlərdə öncüllük etməsi və bütün Türk Dünyasına qucaq açması özəlliklə təqdirəlayiqdir.

2000-ci illərdə tatar ədəbiyyatı və şeirini yeni maraqlı mövzu və təsvirlərlə zənginləşdirən qabiliyyətli qələm ustaları yetişdi: **Luiza Yansuar, Lenar Şəex, Rifat Salah, Rüzəl Mühəmmədşin, Liliya Qıybadullina, Yıldız Minnullina, Elvira Hadı**yeva**, Fanil Gilaji** və başqaları...

...Tatar şeirinin ən öndə gələn başqa bir özəlliyi də var: tatar yaşam tərzi həmişə kənd və kənd həyatı ilə bağlı olub. Son 20 il içində kəndlərin kiçilməsi, hətta bir çoxunun yox olması və kənddən şəhərə köç, şairləri olumsuz bir şəkildə təsirləndirdi. Xalq getdikcə ana dilini, əslini itirməyə başladı. Şeirə şəhər mədəniyyəti və dili

sızdı... amma digər tərəfdən bu durum tatar şeirini şəhər ahəngi, şəhər bəzəkləri ilə zənginləşdirdi.

2000-ci illərdə yeni toplumun durumu, yeni həyatın anlamı və dəyərləri ilə ilgili dərin fəlsəfi düşüncələr tatar şeirinə yeni bir rəng qazandırdı. M.Mirzanın şeir dünyasında güclü yanğı yaradan və tatar türkcəsi, Türkiyə türkcəsi, rusca və ingiliscə çıxan "Adəmoğlu" adlı güldəstəsi buna ən gözəl örnəkdir. Digər tərəfdən XX yüzil tatar şairləri, şeiri eyni zamanda milli və ilahi ahənglərlə də zənginləşdirdi...

Tatar şeiri günümüzdə, sadəcə şeir olaraq deyil, səhnələrə daşınaraq opera və balet olaraq da yaşamağı sürdürməkdədir. Belə ki, R.Xaris, R.Mühəmmədşin kimi fərqli ədəbi nəsillərə məxsus şairlər opera və balet üçün librettolar yazıb. Bu da tatar şeirinə yeni bir dəyər qazandırmışdır.

Qloballaşan dünya tatar şairlərinə də böyük təsir edib. Çünki şair qloballaşa bilmir... Şair bütöv yaşayar, öz dünyasını qoruyar və bu dünyada sənətini ortaya qoyar...

Tatarların coğrafi-strateji mövqeyi, rus və Avropa həyat tərzindən, ədəbiyyatından, başqa türk boylarına nəzərən daha tez təsirlənməsi, özündən uzaq düşməsi, xalqçılığı, özəlliklə şeir ölçülərini (və ahəngini) itirməsinə yol açan faktorların ən öndə gələnlərindəndir...

XX yüzilin sonu XXI yüzilin başlanğıcı tatar şeirinin ən önəmli özəlliyi, toplumun gözləntilərini qarşılayacaq milli ruha sahib, bütün çətinliklərə sinə gərən çağdaş bir qəhrəman arayışıdır. Bu qəhrəmanın xalqın içindən olması çox önəmlidir. Lakin olumlu bir qəhrəman tapmaq həmişə asan olmur. Bəlkə də bir çox şair bu üzdən şeirlərində ünlü şəxslərə səslənməkdə, onları şeirin mərkəzinə qoymaqdadır...

Günümüzün tatar şeirində hüznlü və yaşam dolu iki yol alan, romantizmə söykənən, insanın iç duyğularına yönələn lirik əsərlər də yazılmaqdadır. Hüznlü romantizm, həyatın acımasız və ədalətsiz olmasına yanan, dünyanın və insanların dəyişiminə inanmayan romantik qəhrəmanı, həyat dolu romantizm isə həyatdan zövq

almağı mədh edən, sevgiyə, gələcəyə ümidlə baxan nəşəli qəhrəmanı qoyar ortaya...

Günümüzün gənc şairlərinin şeirlərində bir başqa yenilik, sadəcə onlara özgü bir fikir yürütmə çabası vardır... Təbiətə, həyata olan sevgi, kəndin gözəlliyi və sadəcə şəhərə məxsus bir özəllik... Bu şairlərin xəyalları ilə hər zaman yüksəkdə, adətən göydədir və əslində sevgi və xalqın taleyi, keçmişi və bugünü ilə bağlı şeirlər yazmaqdadırlar... Şeirlərində ayrıca könül sızıltısı, səmimiyyət və dürüstlük vardır. Ana mövzular əsasən eşqdir. Şair Lenar Şəexin də dediyi kimi: "Əslində, şeirlərin adı yoxdur... Sanki şair duyğularını bəlli bir qəlibə qoymaq istəmir, onların sərbəst, müstəqil qalmasını istəyir..."

Çağdaş tatar şeirinin bir özəlliyi də var: Şairlər təbiətə çox yaxındır, təbiət ilə özlərini bir bütün olaraq görürlər. Onların şeirləri göy, bulud, ulduz, Günəş, Ay, külək, yağış, gecə... kimi sözlərdən toxunmuşdur. Bütün bu sözlər çox rəngli, çox hərəkətli, dəyişik şəkil və hallarda verilməkdədir. Bunun səbəbi, bir tərəfdən şairlərin kənd həyatı ilə yaxından bağlı olması, digər tərəfdən isə qloballaşan dünyada şairin bir fərd olaraq qalma mücadiləsi ilə insanlardan, toplumdan uzaqlaşaraq öz içdünyalarına qapanmaları, yalnızlığa üstünlük vermələridir, deyə bilərik.

BİR TƏBRİZ DƏYƏRLƏNDİRMƏSİ:
ŞEİRDƏ KƏLMƏNİN BAĞIMSIZLIĞI…

ÜMİD NƏCCARİ
/15 aprel 1989-cu ildə TƏBRİZdə *doğulub.*
"Quşlar vadisi" adlı şeirlər kitabı
2015-ci ildə gün üzü görüb.

İnsanın tarix boyu durumunu aydınlaşdıran faktorlardan biri (və bəlkə ən qabarığı), düşüncə amili ilə bağlıdır.

Zaman-zaman dəyişməsinə, irəliləyişinə (və ya geri dönməsinə…) baxmayaraq, insanın davranışını, baxışını və yaşam tərzini formalaşdıran da, elə əslində düşüncə olmuşdur. Məhz bu mexanizm nəticəsindədir ki, son beş yüz ildə böyük təkan verərək ədəbiyyatı klassizmdən qopararaq bugünkü yeniliyə gətirib çıxarmışdır. Bu uzun məsafə içrə insanın düşüncəsi romantizm, simvolizm, realizm, sürrealizm, futurizm, modernizm və başqa "izm"ləri təcrübə edərək, böyük-böyük (və eyni halda zəngin), incə əsərlər yaratmış, qabaqcıl insan şüurunu numayişə qoymuşdur…

Bu gedişdə Azərbaycan ədəbiyatıda dünyanın bir üzvü olaraq, son beş yüz ildə özünə müəyyən bir tarix (- yaxşısıyla, yamanı ilə yeni tarix…) qazanmışdır, Ancaq Doğunun özünəməxsus siyasəti və ictimai quruluşunu nəzərə alsaq, uzun zaman şeirimiz Batı termini ilə desək, klassikliyini unutmayaraq, dərin və gözəçarparca dəyişikliyə əl vura bilməmişdir… Bunları bəlkə də, qınamaq düzgün olmayacaqdır, ona görə ki, politikal və toplumsal açısından da, buna hazırlıq yox idi və totalitarizm ədəbiyyatda da polifonizmi öz qaranlıq kölgəsi altına almışdır...

Və elə məhz buna görədir ki, bu acı axış yalnız Azərbaycan şeiri deyil, eləcə də, fars və ərəb şeirində də yaşanmış bir proses olmuşdur. Şeirdən yeni anlam əldə edə bilməyən şairlər uzun illər (və yuz illər belə…) onu təkcə qəlib baxımından deyil, məzmunca da yüksək dəyişikliyə uğrada bilməmişlər; və buna görə, şeir adlanan bu münəzzəm yazılar hər yöndən daim birmənalı mahiyyət daşımışdır…

Bu durğunluğa son qoymaq üçün və çağdaş tələbələrə cavab vermək üçün Azərbaycan şeiri yeni təcrübələrə əl aparmaqdadır və yavaş da olsa, daima irəliləyişində olan son on ilin şeiri buna örnəkdi. Bugün Azərbaycan yeni şeiri "Göylərdə gəzən ilham pərisi"nə göz dikməyib, yerdəki əqlin, zehnin və bilincin yüksək sənət (hünər) və gözəllik yardacağına inanmağa başlamışdır…

Bu inamla, məncə axan yüzildə şair və yazıçı səmimiyyət və sevgi yükü ilə yanaşı, həm də, soyuqqanlı və rasional olmalı; yeni yaşamına uyğun yazını yaratmalıdır; yoxsa, boşuna, bayağı… və ilkin sənət formasının daşıyıcısı olacaqdır (- bu söz, əski forma və məzmuna hələ də təkid edən bəzi şeir yazanlara aiddir). Daha bugünkü hərtərəfli bilimə uyğun olaraq, doqmatizmi buraxmaq gərəkdir.

Çağdaş ədəbiyatçının artıq həyat harmonisi dəyişmişdir, yeni şeir şəhər şeiridir. Şəhər şeiri yeni elementlərdən etkiləndiyimizi güclən-dirmişdir…

Mayakovskiyə görə biz şəhər adamları meşələrdən, tarlalardan və çiçəklərədən xəbərsizik biz yalnız küçələri onun qaçhaqaçını, səs-küyünü və əbədi get-gəlini tanıyırıq...

Modern şeir cümlə ya "ibarət", ya ədəbi sənətlər şeiri deyil… bəlkə də, kəlmə şeiridir..!

Yəni şeirdə kəlmənin öz bağımsızlığı var…

ÇAĞDAŞ BATI TRAKYA TÜRK ŞEİRİ
(VƏ YORULMAZ TƏDQİQATÇI F.SAĞLAM)

Dos.dr. **Təranə TURAN RƏHİMLİ**
DGTYB Təsisçilər Kurulunun üzvü

Yunan hakimiyyətində yaşamasının 80 ildən artıq böyük bir tarixi dönəmini başa vuran türk diyarı Batı Trakyanın zəngin gələnəklərə malik ədəbiyyatı vardır.

Bu ədəbiyyatın Türk Dünyasında tanınmasında görkəmli tədqiqatçı, İzmirdəki "9 Eylul" Universitetinin müəllimi Fəyyaz Sağlamın önəmli xidmətləri olmuşdur. Batı Trakya ədəbiyyatının tədqiqinə 1985-ci ildən başlayan F.Sağlam bu sahədə bir çox uğurlar qazanmış, bu ədəbiyyatın inkişaf tarixinin son 50 ilini ardıcıl və sistemli şəkildə araşdırmağa nail olmuşdur.

Alimin böyük çətinliklərlə əldə edə bildiyi ilk ədəbi mətnlərin 1990-cı ildə Kültür Bakanlığı tərəfindən "Batı Trakyada (Yunanıstanda) çağdaş türk ədəbiyyatı antologiyası" adıyla nəşr edildiyi vaxtlardan bütün Türk Dünyasında bu ədəbiyyata qarşı ciddi maraq yarandı. F.Sağlam bu antologiyanın nəşri ilə əslində daha böyük bir missiyanı yerinə yetirmiş, Yunanıstanda türk ədəbiyyatının yaranması kimi önəmli bir gerçəkliyi dünya ədəbi ictimaiyyətinin nəzərinə çatdırmışdı. Həmin antologiya ilə dünya türk ədəbi həyatına vəsiqə alan Batı Trakya ədəbiyyatı görkəmli tədqiqatçının yorulmaz təbliğatçılıq fəaliyyəti sayəsində ümumtürk mədəniyyəti tərəfindən tanındı. F.Sağlam bu sahədə onlarla dəyərli tədqiqat əsərlərini Yunanıstanda, (keçmiş) Yuqoslaviyada, Quzey Kıprısda, Türkiyədə, İngiltərədə, Almaniyada, Bolqarıstanda, Makedoniyada, Hollandiyada, Özbəkistanda nəşr etdirməklə, Batı Trakya türk şeirini, hekayəsini, folklorunu, uşaq ədəbiyyatını nəinki türk xalqları arasında, dünyanın inkişaf etmiş bir çox ölkəsində təbliğ etdi. Alimin "Batı Trakya türkləri cocuq ədəbiyyatı" (1990), IV cildlik "Yunanıstan (Batı Trakya) türkləri ədəbiyyatı üzərinə incələmələr" (1991-1995), "Yunanıstan (Batı Trakya) türkləri ədəbiyyatında Atatürk" (1992), "Yunanıstanda (Batı Trakyada) çağdaş türk şeiri

antologiyası" (1995) kimi fundamental tədqiqat əsərləri bu qəbildəndir.

Batı Trakya ədəbiyyatının yaradıcılıq uğurları ilə yaxından tanışlıq göstərir ki, bu ədəbiyyatın başlıca uğurları poeziya ilə bağlıdır. Buna görə də F.Sağlamın türkçülük mövqeyindən, çağdaş elmi təfəkkür işığında araşdırdığı Batı Trakya ədəbiyyatına dair elmi tədqiqatlarının böyük qismi poeziyanın problemlərinə həsr olunmuşdur. Tədqiqatçı müxtəlif illərdə nəşr edilmiş monoqrafiyalarında, onlarla məqalələrində Batı Trakya türk şeirinin dolğun elmi mənzərəsini yaradıb. Qeyd etmək lazımdır ki, türk ədəbiyyatlarının tədqiqi və təbliği seriyasından olan kitablarda, məqalələrdə, alimin özünün də etiraf etdiyi kimi, F.Sağlama qədər Batı Trakya türk şeirindən, bütövlükdə ədəbiyyatından bir sətir belə yazılmamışdır.

Türklərin XII yüzillikdən məskunlaşmağa başladıqları bu diyarın ədəbiyyatı, poeziyası isə onun tarixi qədər qədimdir. Çağdaş Batı Trakya türk şeiri qocaman bir ədəbiyyatın zəngin poetik ənənələri üzərində dayaq tapıb yüksəlmişdir. Bu poeziyanın inkişaf yolunu diqqətlə izləyən F.Sağlam onun öz tarixi kökünü xalq şeirindən, divan şeirindən götürdüyünü əsaslandırır. Osmanlı imperiyasının süqutundan sonrakı dönəmdən, yəni 1919-1922-ci illər Yunan-Türk müharibəsinə son qoyan Lozanna sülh müqaviləsinin (1923) şərtlərinə görə osmanlıların dədə-baba torpaqları olan Batı Trakyanın Yunanıstan ərazisinə birləşdirildiyi vaxtdan başlayaraq bu poeziyanın inkişaf yolunu, uğurlarını izləmək mümkünsüz olmuşdur. Bu cəhətdən də F.Sağlam Batı Trakyanın Yunanıstanın tərkibinə daxil edildiyi 85 il ərzində yaranan poeziyanın yalnız son 50 illik inkişaf tarixini öyrənə bilmiş, onun əsas yaradıcılıq uğurlarını müəyyənləşdirmişdir. Bu dönəmdə Batı Trakya ədəbiyyatının inkişaf yolunu izləməyin çətinliklərindən biri də Batı Trakyalı şairlərin dünyanın dörd bir tərəfinə səpələnməsi həqiqəti ilə bağlıdır. Təbii olaraq Fəyyaz Sağlamın tədqiqat vəzifəsinə həm Batı Trakyada yaşayıb-yaradan sənətkarların yaradıcılıqlarını, həm də vaxtilə Yunan hökumətinin siyasi, dini, ideoloji təzyiqlərinə və təqiblərinə məruz qaldığından Vətənini tərk etmək məcburiyyətində olan, başqa

ölkələrdə ədəbi fəaliyyət göstərən Batı Trakyalı şairlərin ədəbi irsini sistemli şəkildə araşdırmaq daxil idi.

Çağdaş Batı Trakya türk şeirinin coğrafiyasına nəzər salan tədqiqatçı bu diyarın hər üç vilayəti – Gümilçinə, Məriç, İskəçə ilə yanaşı Türkiyə, Almaniya, İngiltərə, Hollandiya və Avstraliyada yaranan poeziyanın inkişafını da diqqətlə izləmişdir. F.Sağlamın geniş elmi mənzərəsini yaratdığı Batı Trakya türk şeirinin hüdudları gözlərimiz önündə belə canlanır: Fərrux Mehmet Parvantoğlu, Rasim Həsən Hind, Əbdürrəhim Dədə, Musa Yurd, Rəcəb Qara, Təhsin Sönməz, Ümid Qurtuluş kimi şairlər güvənib pənah gətirdikləri, "Ana Vətən" deyə Böyük Vətən anlamında xüsusi dəyər verdikləri ulu məkanda – Türkiyədə imzalarıyla şöhrət qazanıblar. Almaniyada Aşıq İzzət Yusif, Əli Ayazmalı, Özkan Hüseyn, Mehmet Vəli Fırla, Müzəffər Nabantoğlu, Dəli Həsən Hüseyn Cahid, Mehmet Mehmet, İsmət Alim Mehmet, Nəcla Kürdoğlu, Qürbət Şairi və b. türk poeziyasını sevdirməyə müvəffəq olublar. Rukiyə İbrahim, Fəriha Rəşidoğlu, Nadir Cəlil isə Avstraliyada Batı Trakya şeirini yaradıb təbliğ ediblər. Fəyyaz Sağlamın tədqiqatlarında Əlirza Saracoğlu, Məzlum Hüseyn, Asim Xəliloğlu, Hüseyn Əlibabaoğlu, Cihan Abbasoğlu və b. Batı Trakyada yaşayıb, ədəbi fəaliyyət göstərən görkəmli sənətkarlar kimi təqdir olunurlar.

Gənc qız giləmeyvəni...

BİÇƏNƏK VAXTI

Otlar qəzəblidir biçilməyindən,
Kəndçi gənclər kərəntini itilər...
Hətta sisəylər bu gün
Soba həndəvərində -
yavaş-yavaş cikkildər...

BİÇİN

Mənə elə gəlir ki, mələkləri görərəm –
göylər elə aydındır..!
Yarpaqlar istidən tərləyir sanki...
Çölün tozanağında
Hisslərim şahə qalxıb... –
Pöhrə sünbül qoxusu
dörd tərəfə yayılıb...

Bir də, isti sobada
Bişən çörəyin ətri..!
Bir çörəkçi kürəyiyəm
elə bil...
Bütün doğma hisslərim
bu gün bayram eləyir...

(Turan TEYMUR *çevirib.*)

İLHAM

Gecə yarı... Kazan yatıb,
qar yorğanı yeri örtür.
Düşüncəmlə toqquşan,
qələmim əldən düşür...

Fikirlər qarışıqdı –
vərəqlərə baxıram:

Sanki dualarımı
ağ xalçaya “yazıram”...

nəbzim ahəstə vurur
hər vuruşu sayıram...
Bu an... saat zəng çalır..! –
mən barmaq qıjayıram:

Deyirəm, “Bax,
ilham mələyimi
qaçırdacaqsan”..!
...qoy qara gecədən
şeirlə çıxaq...

QU GÖLÜNDƏ YAĞIŞ

1.
Narın-narın yağış yağır
dərin-dərin doyur göllər...
Sünbül-sünbül qoxu dolur
Künc-bucağa, gizlinlərə...
“Hamam günü”dü elə bil
Qalın-qalın meşələrdə...
Çox isti olmasa da...

2.
...Hərdən elə duyuram,
bakirədi bu dünya –
lap indicə yaranıb.
Gözəldi hər yan, hər şey... –
və mən bu gözəlliyi
ilk dəfədi görürəm...
mən bu gün də elə bil,
bir dişsizcə körpəyəm...

(Ə.QOŞALI *çevirib.*)

GÜLNUR QURBAN
Qölnur Ravil qızı Korbanova

TATARISTAN Respublikası*nın* Aktanış rayonu*nun Puçı kəndində doğulub. KDU-nu bitirib. TaYB-nin üzvüdür. "Uyemnın quyını" ("Fikirlərimin qoynu", 2006),"Utlı yeşenlerqe kaqılsan" ("Odlu ildırıma toxunsan", 2007) adlı ədəbi kitabların müəllifidir. Gülnur əsasən uşaqlar üçün yazır. 2012-ci ildə şeirlər toplusu və "Ayu bulu kıenmı?" ("Ayı olmaq çətindirmi?") adlı tapmacalar toplusu işıq üzü görüb. "Allaha güvən" Ədəbi yarışmasının qalibi (2012), "İpək Yolunda şairlərin görüşü" adlı uluslararası şeir şöləninin laureatıdır (Türkiyə, 2013).*

***

İncəlidik qu quşu kimi,
saraldı gözünün dibi...
Taleyimə minnətdaram
qovuşdurdu axır bizi.

Bilirəm, qu quşu uçar,
onu qəfəsə sal, qalsın.
Payız soyuğu düşəndə...
qəfəsimiz qəlbin olsun...

YALQIZ ALMA

Budaqda son alma,
Torpaqda ilk qar...
Nəyi gözləyir o,
Düşməyə nə var?..

Düşməyə yermi yoxdu?..
Yumşaq qarla örütülüb,
qara torpaq görünmür...
İndi necə asandı,
Ağ qar üstə atılmaq...
Yoxsa, qorxurmu alma,
Qar üstdə buzlamaqdan..?

Bəlkə də, düşünür ki,
budaqda qurumaq
daha yaxşıdır,
ayaq altda qalmaqdan..!

***

Yad diyarlar – yad deyil
(Bağışla məni, doğma diyar)
Orda Ay nurludur, Günəş şəfəqli,
o nurdan, şəfəqdən hamıya pay var...

Adəm və Həvvadan gəlmirmi nəslin? –
Mənim də köklərim ordan su içib...
Budur, yeni tablom "Dəniz" adlanır,
O şəklə, elə bil, ürəyim çöküb...

Öz yurdumda dəniz... Dağ ardında dağ...
Ah, necə gözəldir saf dağ havası..!
Mənim xalqım qürurludur binədən,
Hər yanda toxumu cücərir, şükür!..

Mən necə deyim ki, dünya yadlaşıb,
Bax, budur məscidin Aylı günbəzi..!
Azan eşidirəm, dua duyuram
İlahinin nuru axır qəlbimə...

Başqa tərəf... söylə, başqa yadlıqmı?
Həyatda yad yoxdur, özgə yoxdur heç..!
Bəs niyə, bəs niyə, bilmirəm düzü,
Vətənin həsrəti bunca çətindir?..

(İntiqam YAŞAR *çevirib.*)

LEYSAN FƏTHƏTDİN

Ləysan İldar qızı Soltanova **(Fətxetdin**ova**)**

1990-cı ildə TATARISTAN Respublikası*nın* Balıq Bistəse *rayonunun Kutlu Bökəş kəndində doğulub.*
Tatar Kitab Nəşriyyatı tərəfindən gənc yazıçı və şairlərin kitablarının nəşri proqramı çərçivəsində müəllifin "Yaşayan sükut" şeirlər toplusu çap olunub. TaYB-nin üzvüdür.
Gənc yazarların respublika yarışmasının qalibi ("İdelem akçarlığı" (Qran-pri, 2008) olub, 2009-cu ildə isə Səcidə Süleymanova adına təqaüdə layiq görülüb. KDU-nun Jurnalistika fakultəsinin məzunudur. Hazırda "Kazan odları" dərgisində redaktordur.

ÖTÜR...

Keçir anlar... ötür saat... dolur zaman,
Gün gün ilə görüşüncə, baş qarışır...
"Nə qazandım?" deyib durub, duyğulandım,
Fikirlərim od götürüb, hey alışır...

Dəqiqələr həftə olur, həftələr il,
Məqsədimə çatmağıma bir addım var...
Dönməliyəm, gerilərdə bir kənd qalıb,
Bax, o kənddə min xatirəm, bir adım var...

Dəqiqələr, aylar keçir... yüzil olur...
Ha bəxtimiz gülər, deyib, gözləyərik...
Səadətim qanadlanıb, əldən uçub,
Peşimanlıq gəlincə də, can üzərik...

Fərq etmirik, anlar necə əsr olur,
Bizdən öndə zaman gedir, hey çaparaq...
Biz dünəndə ümid tapdıq, xəyal qurduq,
Ömür gedir qaça-qaça, "taraq-taraq"...

ÇATMIR

Söz kəm qalır mahnımda, səsim də zəifləyib,
Xalqımın arzuları qəlbimi məskən seçib...

Gün də çatmır, ay da çatmır, il də çatmır, danışım:
Xalqımın çəkdiklərinə yüzil lazım, anladım...

Anlatmağa gücüm yox, istedadım da yetmir,
Xalqımın yazdıqları bugün də keçərlidir...

Hər xalqın öz keçmişi, öz məni, öz dili var,
Mənim də keçmişimdə, şanlı əsrlər durar..!

Çox danışıb, çox eşitdik, çox işlədik – lap yaxşı,
Milli qürur olmasa, bunların nə yararı?..

Özgə yerdə qəribsən, kimin var, olsun hayan?
Millətin çətin vaxtı, xalqın yanında dayan!

QAYIDIRAM

Masa arxasına dönürəm yenə,
Amma şeir başqa qiymət almalı...
Mən özüm özümə tələb qoyuram,
Şair qələmiylə dərin olmalı...

Bugün qiymətlidi hər təzə fikir,
Söz-söhbət çox olsa, dəyərdən düşər.
Hamının axırı, mənzili qəbir,
Mənasız sözlərsə məzarsız ölər...

Yenə sarılıram öz qələmimə,
Böyük fikirlərə söz-söz gedirik...
Bəzən susmaq özü fikir daşıyır,
Fikir sınırsızdır, qalxıb-enirik...

(Akəm XAQAN *çevirib.*)

RÜZƏL ƏHMƏDİYEV

3 aprel 1989-cu ildə TATARISTAN Respublikası*nın* Aksubay *elinin Şərbən kəndində doğulub. Tatar Dövlət Humanitar Pedaqoji Universitetini bitirib. Tələbə olduğu müddətdə qaynar yaradıcı mühit içində olub: şeir yazıb, gitara çalmağı öyrənib, tamaşalarda iştirak edib, habelə rep qrupu yaradıb; II kursda oxuyanda televiziyada aparıcı olub; eyni zamanda, dil kurslarına gedib. Şeirləri Tatarıstan gənc yazarlarının "Ağ yol" ədəbi toplusunda yer alıb.*

NƏ QALACAQ?

Yuyulunca döş cibimdən çıxacaq
beş manat pul, bir də əzik biletlər.
Bu hal kimi dərdə-qəmə kökləyər..?
Nə olacaq, aman canım, söylə nə..?
Böyük yola yoldaş oldum, yol getdim,
Gün oldu ki, qulağımı yad səslərə
qapadım,
qapayıb da öz ruhumu qorudum
Nə qalacaq, aman canım, söylə nə..?

Bir də, telefonunda
adım yazılan dostlar,
Adımı anacaq, yoxsa, pozacaq..?
Bəlkələr nə çoxdur, suallar nə çox,
Nə yozacaq, anam, canım, söylə nə..?
Canına anam hər məscidə girəndə
Nəzirini mənə ad eyləyərdi,
Mənsiz nəzir qutusuna pul atsa,
Nə deyəcək, dondu qanım, söylə nə..?
Həyatmı dənizdir, dənizmi həyat? –
İnsan gedir izi qalır, susa izi saxlamır...
Bəlkə oğlum doğruldacaq adımı..? –
Hara vergül qoyuramsa,
ora nöqtə qoyacaq.

Nə duyacaq, aman canım, söylə nə..?
Var gücümü yumruğuma toplayıb
əzabların sərhəddini keçərək
əllərimi uzadıram –
dünya sığar ovcuma,
kim mənə əl uzadacaq, söylə kim..?
nə dolacaq, nə solacaq, söylə nə..?

***

Səhvimizi çevirməyək qarğışa,
Səhvlər çoxdur, bizsə iki nəfərik.
Bu dünyadan küsmüş iki dəliyik,
Yəqin duydun,
duyarlısan, bilirəm.
Mənsə bir-bir duyğuları topladım
Atmamaqçün... –
Diri qalan duyğuları qoruyaq...
Yəqin alın yazısıdır –
sirrimizin sərhəddində
Ürək azıb yolunu...
Böyütməyək addımları
Göz yaşımız damar durar...
Yuxumuza qımışar...
Hələ bir dön geriyə bax,
görürsənmi ot üstündə izləri..?
Dan söküldü...
səhər ürkək açıldı...

***

Sən mənim bəxtim idin
Sən mənim bəxtəvərim
Hamı dua eyləyir,
Sənsə bəddua oldun...

Əvvəlcə sevgim idin,

nifrətdən adam oldun.
Xoşbəxtliyi dolaşan
niyyətdən adam oldun...

Mənə hərdən sevgili,
Hərdən də şeytan idin.
ən uca varlığımdın,
ən ucuz xatam oldun...

Tale quşum olsan da,
mənə pislik gətirdin.
Ulduz parıltısıydın
eşqə şərik gətirdin...

Həyəcanlı sükutum,
hirsli müharibəmsən.
Hərdən buzdan soyuqsan,
ən isti nəfəs sənsən...

(Elşad BARAT *çevirib.*)

SELÇUK DÜZGÜN
TÜRKİYƏ
Erzurum doğumludur. Liseyi İzmit`te,
lisans ve yüksek lisans eğitimini KKTC`de tamamlayıp.
Azerbaycan-Türkiye-KKTC hakkında çeşitli kitapları vardır. Birkaç dergi ve gazetenin genel yayın yönetmenliğinde bulunmuştur.
Hali-hazırda ADİÜ-ye bağlı "Türk Dünyası İşletme fakültesi"nde öğretim görevlisidir.

ALTAYLARDAN TUNAYA TÜRK KIZINA

Sen!
Sen; tarihim, Turan için türeyişim,
Sen; merhamet kucağına sığınağım,
Sen; göklerin serinliğine yükselişim,
Sen; toprak bedenim, derinleşmem…

Söyle!
Söyle, kim söndürdü gözlerinde ki ateşi?
Söyle, yüreğinin kan kustuğu o isyan ne ?
Söyle, kim söktü senin nasırlarından kınaları?
Söyle, seni makyaj malzemesi yapanlar kim?

Sen!
Sen; gönül çınarımda yükselen Mala hatun,
Sen; Atilla`yı Alparslan`ı emziren maya,
Sen; kağnılar başında cepheye giden Elif,
Sen; cennetin ayakları altına serildiği ana…

Söyle!
Söyle, güzelliğinle eriyen Burkay nerede?
Söyle, Pusatlanarak ruhlaşan erlerin nerde?
Söyle, Mecnun`u çöle düşüren sevgine ne oldu?
Söyle, Köroğlu`na baş kaldırtan Nigâr nerde?

Dinle!
Sen abdestsiz içmedin sütünü anandan,
Ve içirmedin yavruna sütünü abdestsiz,
Sen Türk milletinin bekası için doğdun, doğurdun!
Sen Türk milleti için büyüdün ve büyüttün yiğitleri…

Ve ben!
Seni dert ettim, derdime derman ettim,
İnerek köklerinin derinliklerine sessizce,
Ruhunda saklanmış azametini deştim,
Ana, bacı, yâr diyerek ben seni sevdim…

Öyle ise!
Titre ve kendine dön, özüne dön, sütüne dön..
Buna mecbursun; Çünkü sen, Türk Kızısın!..

BİLİR MİSİN, BACI?

Bilir misin bacı, çektiğim nedir?
Kanıma katıp ta içtiğim nedir?
Bir Hazar akşamı Bakü Şehrinde,
Gönlümde eritip bittiğim nedir?
Bitmiyor bu gurbet, hasret bitmiyor.
Izdırab üfleyen Ney`ler bitmiyor.
Dert ekip, zulüm biçtiğim canda,
Ecele yol alan demler bitmiyor…
Merhamet düşmüyor kirpiğe artık,
Boğazda yudumlar haramdan artık,
Düşerken damlalar kan gibi yere
Hıçkırık göğsümde durmuyor artık…
Kaç gece bu haller beni delirtti.
Düşmanın kahpesi beni delirtti.
Sevdiklerim için verirken sınav,
Dost bildiklerim beni delirtti..

Zaman çok hızlı, kalmadı vaktim.
Saplandım bir söze, gelmedi vaktim.
Dik durdum hayatta, eğilmedim başı,
Secdede yalvardım dolmadı vaktim.
Anadan, babadan geçtim dünyadan,
Vuruldum bir göze geçtim dünyadan,
Zulme baş eğmedim Selçuklu oldum,
Bir ELİF aşkıyla geçtim dünyadan!

AYNA

Terk ettim `insan`ı karşına çıktım
Sordum `kul`muyum içine daldım
Söndü ışıklar yüzleştik senle
Beni `ben`siz saklayansın anladım
Özünden kaçsa da günahkâr canlar
Gerçekten kaçsa da arsız suratlar
Bir kez göz göze gelince senle
Kaçamaz vicdandan acı yaralar
Korkmadan her şeyi söylüyorsun ya
Sorarsam hatırımı et bu kez riya
İşte huzurundayım yalnızım senle
Hadi gül vicdanıma olmasın rüya
Derdimi söylerim alır veririsin
Gülerim yüzüne bana gülersin
Bak yine geldik öz öze senle
Görürüm içinde benle gidersin
Belli; bizim içimizde başka bizler var
Bildim ki, beni bana gösteren sen var
İşte aynam yüz yüzeyiz senle
Biz yüz yüzeyiz de arkada kim var?

TALAT ÖZƏR
TÜRKİYE

25 Temmuz 1994 yılında Elazığ'da doğdu.
Eylül 2011 Şiir ve Şehadet temasıyla, Mehmet Akif Ersoy hatırasına düzenlenen 19. Uluslarası Hazar Şiir Akşamları kapsamında gençler arasında tertip edilen Şiir yarışmasında ikincilik ödülüne laik görülüp.
Elazığ Fırat Üniversitesi İnsani ve Sosyal Bilimler Fakültesi Türk Dili ve Edebiyatı Bölümünde okudu.
Bay Gece (Karanlığın Şairi) mahlasıyla şiirler yazmaktadır.

İÇİNDEN GELDİĞİ GİBİ TÜRKÜLER SÖYLE

Bir bahar penceresinde gözlerim,
Çiçek açan dallara dalmışım öyle.
Yüksek tepelerden yeşil ovalara,
İçinden geldiği gibi türküler söyle…
Ağaç gelinliğini giymiş çiçekten,
Haber veriyor toprak börtü böcekten…
Güneş yükseklerden gülümserken,
İçinden geldiği gibi türküler söyle.
Öyle bir türkü tuttur ki diline,
Haber olsun o türkü Türkman Eline.
Tabiatın kokusu sinsin sevda yeline,
İçinden geldiği gibi türküler söyle.
Bir bahar hoyratı olsun musikişinas,
Gönüllere var dağları tepeleri dolaş.
Sevgiyi mutluluğu güzelliği paylaş,
İçinden geldiği gibi türküler söyle.
Selamını alsın Özbek, Kazak, Kırgız,
Türküne türkü tuttursun Azeri kız.
Göklerde dalgalanırken ay yıldız,
İçinden geldiği gibi türküler söyle.

GEREK

Gerçeği görmeye göz yetmez,
Yüreğinden görmek gerek.
Bedeni altından üst örtmez,
Dervişe imandan gömlek gerek.
Buğdaydan ekmek olur,
Buğdayı eken dua bulur.
O isterse sular durur,
Dervişe deniz değil damla gerek.
Fani dünya çift taraflı yol,
Yolunu kendisi seçer her kul.
Kimisi yüreğine dünya malı doldurur,
Dervişe mal değil amel gerek.

SAATI AYRILIĞA KİM KURDU..?

I

Adını sulara cesaretli ellerle yazardım,
Dalgalar silerdi ardımı dönüne kadar.
Kömürden bakışların çıkmaz aşka mezardı,
Şansızdım aşkın tabutunu ellerle taşıyacak kadar.
Kimse bilmesin diye seni,
Yıldızlar arasında yaşatırdım gölgeni.
Kimse hissetmesin diye seni,
Denizler altında saklardı sana ait teni.
Gözlerin ışığını kaybetmesin diye,
Uğruna bakışlarımı yakardım.
Sevdamı bir başkası bilmesin diye,
Aşkı kâğıttan gemi yapıp gözlerine bıraktım.
Ne kadar kaçırsam da gözlerini,
Gözlerim gözlerini taşıyacak kadar cesurdu.
İçimi yiyip bitirdi sevdanın kurdu,
Söyle Güneş saçlı yar…
Bizim için saati ayrılığa kim kurdu?..

II

Birbirimizi severdik delice,
Sevdamız büyürdü hazar kadar.
İçime ayrılığın rüzgârın düşerdi sessizce,
İçimde kavurulurdu en serin bahar.
Oysa sık ilmeklere gizleyip aşkı,
Kalbini kalbime düğümlemiştim.
Belki de gerçek olan gözlere,
Aşk pembesi bir bakış yüklemiştim.
Aşk şehrinde gözü kör âşık olup,
Kendi kendimizi mi oyaladık.
Aşka ihanet etmeyecek kadar sadıktık,
Belki de bu yüzden mutlu olamadık.
Bugün yüreğim yüreğinde durdu,
Yıkık bir aşiyan mı bu aşkın yurdu.
İçimi yiyip bitirdi sevdanın kurdu,
Söyle gamzesinde mehtap taşyan yar.
Bizim için saati ayrılığa kim kurdu?

BEN ŞAİRİM BAŞKASI DEĞİL

Şiir döşenmiş yollarda yürürüm,
Dünyayı yüreğimden görürüm…
Gerekirse bu uğurda ölürüm,
Ben şairim başkası değil..!

Hazır kalıp bir model olamam,
Sahtelik dolu uykuya dalamam,
Sözü yalana dolana dolamam,
Ben Şairim Başkası Değil..!

Kimi yalancının mumuna kibrit,
Kimi çıkar değirmenine su taşır.
Bazısı aslını terk eder düşmanına karışır,
Ben şairim başkası değil…

Boşa koşan atın üzerine binmem,
Hiçbir kulun önünde eğilmem,
Bazısından farklıyımdır ruhen,
Ben şairim başkası değil…

Dinle kulak ver heyecanlı sesame,
Dünya yükle istersen nefesine.
Yetişebilir misin Mısra'nın gölgesine,
Ben şairim başkası değil…

Dilimde gülde var dikende,
Hak edene gülistan olurum,
Yolunu şaşıranı bırakırım dikende,
Ben şairim başkası değil.

Şiirin başkentidir yerim,
Şiir yolunda kalem tutan neferim…
Garip bir ozan gibi divanece söylerim,
Ben şairim başkası değil…

KANATSIZIM

Acımadan
içimi kanat
sızım
Artık
sevdaya uçamayacak kadar
kanatsızım…

MUSAB KIRCA

TÜRKİYE*'nin* Adıyaman ili*'nin Gölbaşı ilçesinde doğdu (1982). Abant-İzzet Baysal Üniversitesinden 2005 yılında mezun oldu. Şiir ve yazıları "Karagöz", "Aşkar", "Hece", "Yarın" dergisi ve "Yeni Şafak" gazetesinde yayınlandı.*

DÜŞERKEN ÖĞRENDİĞİMİZ YASALARI TARİHİN…

I.
Ey benim eşikler önünde azalarak,
Uykularıma gösterdiğim tahammül.
Ey yaka paça benim kasıklarımla,
Uçurumlardan alçalarak ve taşlarla.

II.
Dünya işte zihnime oturmuyor,
Ahenge hengâme yorgun yeğni olmasız.
Allahsız bedestenin kemik kütürtüleri,
Çarpa çarpa bir şey kalmadı bende.

Düşerken öğrendiğimiz yasaları tarihin;
Bir hata en çok sızısından anlaşılır,
Bütün asitliklerin nedeni; itaat argosu…

Duvarda bir de kerpiç sorunumuz var
Çıtkırıldım tarih haritada böyle künt
O bulağı yosun gibi incitir gerçekler
Kedilerin ot yediği hüngürde…

III.
Düşerken öğrendiğimiz yasaları tarihin;
Çocuklar hiçbir sabah memnun uyanmazlar babalarından.

Ne ki olgunluk geçicidir.
Kapıyı açınca sen de hissedeceksin üşümeyi
Bize bir soğukluk kaldı cetvelle oluşumuzdan

FERYAT EROL
TÜRKİYE
16 Kasım 1980'de Yozgat'da doğdu.
Antalya'da yaşıyor.
"İpek Yolu" Genç Şairelerin I Uluslararası Forumunda
(26-28.04.2013/Bakü) Türkiyeni temsil edip.

İLK BAKÜ SEFERİM ÜZERİNE…

Gelen bir telefonla Bakü yolu göründü bana,
Valizimi topladım büyük bir heyecanla,
Hazırlığımı yaptım kendimi vurdum yola…
Uçak piste inerken içim ürperdi birden,
Vatanımdan uzaklara nerelere geldim ben..?
Düşündüm,
tanıdığım kimse,
bildiğim birtek yol yok Azerbaycanda,
İçim titreyerek yürüdüm havalimanında…
Daha ilk dakikada anladım aslında
korkacak bir şey yoktu herkes, herkes harika!
Güvenlik, personel – yolda yürüyen herkes
Gülen gözlerle bakıyordu bana
…Harika bir otelde harika bir oda tahsis etmişler bana
Hemen arkasından güzel bir restorantta mükemmel bir masa.
Menü çok kalabalık – saymakla bitmez,
Yediğim yemeklerin tarifine kelimeler yetmez,
Hele de o dolma... ımmm tadına doyum olmaz.
Böyle bir karşılama tabiki unutulmaz,
Yemeğin arkasından bir de sürpriz vardı;
Azerbaycana özel dans gösterisi başladı.
O dans, o müzik eğlencede son noktaydı..!
İşte, işte Vatan dediğin böyle kokardı!..
Bakünün tüm sokaklarını adım adım gezdik, eğlendik.

Mimari yapısına, tarihe olan saygısına,
İçerişehrine, Kız Kulesine, Şirvanşah Sarayına...
Baküde bulunan Şehitler Hiyabanı...
İnsanlarının gülen gözlerine, tatlı dillerine hayran kaldık
Biz Türkler çok severiz Azerbaycan halkını,
Bir kez daha anlamış oldum Azerbaycan farkını..!
Boşuna şehit vermemişiz
Azerbaycanda yatan ana kuzularını;
Son damlasına kadar helal ettik sana Azerbaycan!..

GÜZEL BAKÜ

Bakü güzel, sihirli,
hayat dolu Bakü.
Sokaklarında sevda izleri,
durmak bilmeyen rüzgarında hasret kokusu...
Kimbilir ne aşklar başladı ve bitti her sokak köşesinde…
Kimbilir hangi sevdaların hasret dolu kokusunu taşıdı
o rüzgar..?
Hey güzel Bakü,
buram buram aşk kokan harikalar ülkesi..!
Öyle masum, öyle içten bakan güzel gözlerin
içinde kötülük bulunmayan kalplerin yuvası..!
Güzelliklere koynunu açmış Hazar Denizi,
nice aşıklara mezar olmuş Kız Kulesi…
Hey, güzel Bakü,
Unutulmaz aşklar ülkesi!..
Acılarda sindimi
o eşsiz mimaride yapılmış duvarlarına..?
Çığlıklar çarptımı selvi gibi uzanmış ağaçlarına..?
Gözyaşları damla damla aktımı asil topraklarına..?
Hey, güzel Bakü,
Yaşanmışlıklarla dolu sevgi ülkesi..!
Böyle bir ülke daha yokki rakip olsun karşına..!

Ülkenin güzelliği yansımış tüm neferine, halkına.
Öyle bir tanıtınki
tüm dünya varsın bu güzelliğin farkına
Hey, güzel Bakü, bütün güzelliklerin ülkesi..!
Her insanmı yardım eder, el uzatır yoksula,
Bir erkek böylemi değer verir kadınına, aşkına..?
Görülmemiş bir sevgi düşmanına, dostuna..?
Hey, güzel Bakü,
Gerçek dostluklar ülkesi..!
Gün doğumun bir güzel,
Akşamın başka güzel!..
Geceyi aydınlatan ışıkların ne güzel,
Denizine yansıyan yakamozun bir güzel..!
Anlatmakla bitermi..? –
her günün başka güzel!

NİLUFƏR ŞIXLI

BAKIda doğulub; hazırda MOSKVAda yaşayır.
M.Torez ad. Moskva Dövlət Dillər Universitetinin Humanitar və tətbiqi elmlər fakültəsinin, M.Lomonosov ad. MDU-nun Jurnalistika fakültəsinin məzunudur. Ədəbi yaradıcılığı Azərbaycan, Gürcüstan, Çexiya, Latviya, Rusiya ədəbi mətbuatında yer alıb. "RİA Novosti" İnformasiya Agentliyinin (Moskva, RF) əməkdaşıdır.

LEYSAN

Süzülüb dağların yamaclarıyla
Yerdən sığınacaq umur bu yağış...
Pak edir aləmi göz yaşlarıyla,
Təkcə yamanları yumur bu yağış.

O, eşqin ruhudur, buluda uçub,
Qayıdır həsrətin damlalarında.
Dəli bir havaya qol-qanad açıb
Rəqs edir evlərin boz damlarında.

Ya Zəmzəm suyudur dönübdür selə,
Can verir sevginin ölən çağına.
Bəlkə də Tanrıdır kövrəlib elə,
Dözməyib kiminsə ağlamağına...

GECƏ DÜŞÜNCƏLƏRİ...

Bir gecənin ətəyində
Neçə gözün yuxusu...
Göydə ulduz naxışları,
Havada gül qoxusu...

Ay sulara naz etdikce,
Şölə saçır bənizi.

Yerin islaq yaxasında
Göz üzünün əkizi.

...Məftun olub qələmini
Saçlarına taxırsan,
Bir məhəbbət filmi kimi
Təbiətə baxırsan;

Ruhun çıxıb qucağından
Rəqs eləyir sübhədək...
Azadlıqdan əl uzanır:
“Haradasan, gəl, gedək!”

Səssizliyə vurulursan,
Nə dünən var, nə indi.
(Çox şeyləri öz adıyla
Xatırlamaq çətindi!)

...Bu arada gecə bitir,
Kölgələr də çəkilir...
Al şəfəqlər yavaş-yavaş
Yer üzünə səpilir...

Səma elə aydınlaşır -
Kitab kimi oxunur...
Yaradanın hökmünə bax,
Sabahların şərəfinə
Sözdən şeir toxunur!

PİANONU AĞLADIR HƏZİN NƏĞMƏ BAYAQDAN

Bu mənəmmi ağlayan,
Həzin nəğmə səsimi?..
Yanağımı oxşayan
Yağışın busəsimi?..

...Göy üzündə gözlərim
Ümid axtarır yenə...
Həsrət təzə don biçir
Sevgimizin əyninə...

Üfüqlər qəlbim kimi
Alışmada, yanmada.
Bu gün iki gündü ki,
Sənsizəm bu dünyada.

Hər şey mənim əksimə:
Xəyal, fikir, düşüncə,
Qəfil döyülən qapı,
Erkən qaralan gecə.

Qulaqlarım tutulur,
Sənsizlik haray salıb.
Gənclik duyğularım da
Bir gecədə qocalıb.

Dünya geri fırlanır,
Durammıram ayaqda.
Pianonu ağladır
Həzin nəğmə bayaqdan...

AYILANDA GÖRƏSƏN Kİ...

Ayılasan, görəsən ki,
Gecə keçib sabahdı...
Taleyinə, xəbərsizcə,
Gün doğubdu nə vaxtdı...

Bir xoş zəngin sədasına
Gözlərini açasan,
Elə gecə paltarında

Danışmağa qaçasan...

Baxasan ki, sübhəyaxın
Anan şeir göndərib,
Bir neçə xoş kəlmə ilə
Ömrü gülə döndərib...

Hənirtiyə boylanasan -
Odur, gəzir otaqda...
Bir də şirin yuxu tuta
Hələ isti yataqda...

Pəncərədən, uzaqlarda
Qız qalası görünə.
Ciyərinə Günəş dola
Soyuq hava yerinə!

Biləsən ki, durub indi
Düşəcəksən aşağı,
Qabağına kim çıxacaq –
Doğma məhlə uşağı...

Yol uzunu dodaqaltı
Söz qoşasan bu günə...
Dostlarına rastlayasan, -
Ürəyin də sevinə!

...Arzuların çoxu qalmış,
Sözün çoxu deyilmiş.
Ayılanda görəsən ki,
Bunlar yuxu deyilmiş...

GÜLSADƏ İBRAHİMLİ

19 noyabr 1986-cı ildə CULFA*da (NMR) doğulub. Naxçıvan Özəl Univerisitetində "Azərbaycan dili və Ədəbiyyatı" fakultəsində oxuyub. Azərbaycan Prezidenti Təqaüd Fondunun təqaüdçüsüdür.*

BİR ŞƏHƏR SEVMİŞƏM

Bir şəhər sevmişəm
sahili sən,
dənizi mən.
Qorxuram,
qoşulub qağayı qanadına,
atılan bir yemin arxasınca gedərsən...
Düşərsən gözündən xəyallarımın..!
İncinər diz qapağın.
Mən fırtınaları dəli,
sevgisi hədsiz,
bir az
havalı qadın...
At çapar dalğalarım
sahilinin boyunca,
Söylə mənə, sevgili,
Bakımı sən qədərdi,
sənmi Bakı qədərsən?!
Bakımı qədərdi,
Sənmi qədərsən?

ÖPÜRƏM SƏNİ, BAKI

Bu şəhərin dəmir barmaqlıqları varmış,
ürəklərdə cəza evləri...
Uçmayan təyyarələri var bu şəhərin,
geciken gecə reysləri...
Darıxdırmağı var,
sıxmağı var,
Boynuna ip dolayıb gecədən asmağı var.
Sevmirəm səni, Bakı,
sevməyəcəm heç zaman.
Sənə minnət yazıram,
sənə tənəm əbədi..!
Gecənin bu saatı
yalnızlığı anladır...
Açıram gecənin düymələrini –
sabaha tez qovuşum.
Öpürəm Xəzərimin təngiyən nəfəsindən,
"ölürəm" turistlərin bu "Bakı həvəsi"ndən...
Yaman yorulub Bakı,
yaman çirklənib dəniz,
Neft qoxusu gəlir kefli qağayılardan...
Balıqlar ölümünü dəniz dibində gəzir...
İnsanlar soyuqqanlı,
metro qatarları da
dərd daşıyır yer altda.
Ağırlaşıb Abşeron,
elə bil ip üstədi;
Qalsam pis yoluxacam,
Bakı, noolacaq, bilməm,
Bakı, məni bağışla –
bağışla bu gedəni..!

SƏNƏ QALSIN BU ŞƏHƏR

Mən gedirəm buradan,
sənin olsun,
sənə qalsın bu şəhər.
Al xatirələrimizi
çiçək-çiçək at,
Xəzərin qoynuna...
Mən gedirəm yoluma,
sən gedirsən yoluna.
Ötəri tanışıydıq
bir ömür kesiyində,
Bir sevgi oğurladıq
qağayı dimdiyindən...
Sabah mənsiz qalacaq görüş saatlarımız,
sabah sənsiz olacaq qurduğumuz xəyallar.
Küsmələrim sənsiz,
darıxmaların mənsiz...
Mənsiz qalacaq evin,
mənsiz qalacaq divarlarında kölgən...
Bir şəhər tənhalığı gələcəkdi üstünə...
Mən gedirəm əlindən,
uçan son telim kimi.
"Biz" olduq bu şəhərdə,
bizləşdik yana-yana,
"Tez doğulmuş sevgi"ni
gətirdik ətə-qana...
Sağ ol!
Özünü qoru!
Unut məni bu sabah,
keç pəncərə önünə...
amma gözləmə yolu...

LAMİYƏ İSAZADƏ

Lamiyə Ədalət qızı İsayeva;
12 may 1989-cu ildə GƏNCƏ*də doğulub.*
Gəncə Humanitar Kollecində oxuyub.

HƏYAT

Həyat açılmayan pünhan bir sirdir,
sabah nə olacaq? – hələ bilmirik…
Həyat həm gözəldir, həm də çirkindir,
onu olduğutək qəbul etmirik…

Tutmaq olmur heç vaxt onun nəbzini,
doğrulur, dolanır, dəyişir həyat…
Demə, qaçaraqdı, demə, durğundu,
qarışır, barışır, öcəşir həyat…

Acımı? – acıdır, şirinmi? – şirin,
sabaha boylanıb, yaşamaq gərək..!
Nə küsüm, nə küssün, həyat həyatsa,
bir addım qalxmaqçün basamaq gərək…

Həyat imtahandır, bizsə tələbə,
eh, nə qədər sual cavabsız qalıb…
Elə yaşayaqki biz ömrümüzü,
deməyək, bugünüm savabsız qalıb…

E-hey, bu həyatda məna axtaran,
həyatın mənası yaşamaqdadır..!
Aldığın nəfəsçün şükür eylə hər an,
hər aldığın nəfəs yaşamaq dadır…

ARZULAR

Aşıb daşar arzularla könüllər,
yenə hər gün yeni arzu doğular.
Özümüz öz könlümüzə yetmirik,
bəzən ömür arzularla soluxur...

Amma arzulardır həyatın bağı,
onsuz ömrümüzün nə mənası var..?
Arzulu könüllər, pərvaz qanadlı,
arzusuz bir ömür, boş bir mağara...

İnsan çatmaq istər, hər arzusuna,
əllər çatmasa da, ürəklər çatar...
Həyat, nə qəribə qanunların var,
arzu bir gəldimi... törəyər, çıxar.

…Kökü ürəkdədir, xəyalı harda? –
arzular çırpınar uzaq ünvana...
Hamı arzudadır, arzu hamıda...
Kimi yolda qalar, yol kimə qala..?

NƏFƏS ALAN CƏSƏD

Kimsə bilməz çəkdiyimi,
göz yaşları tökdüyümü.
Bilən yoxdur, öldüyümü,
nəfəs alan, bir cəsədəm.

Dərdi, qəmi yox edirəm,
gözlərimdə gizlədirəm.
Ölüm, haraya gedirəm? –
nəfəs alan, bir cəsədəm.

Ümidsiz qəlb daşıyıram,

qanım donub, üşüyürəm.
Görən sanır yaşayıram,
nəfəs alan, bir cəsədəm.

Könlümdə bir tənhalıq var,
bu gen dünya, mənə çox dar.
Görünsəm də mən bəxtiyar,
nəfəs alan, bir cəsədəm.

Damla-damla yaş süzülüb,
yanaqlarıma düzülüb…
Əlim həyatdan üzülüb,
nəfəs alan, bir cəsədəm.

Bu dünyada yaşasam da,
hərdən gülüb, danışsam da,
Ayaq üstündə olsam da,
nəfəs alan, bir cəsədəm.

Görünənə inanmayın,
göründüyü tək sanmayın;
Varlığıma aldanmayın,
nəfəs alan, bir cəsədəm…

VASİF ZÖHRABOĞLU

19 aprel 1986-cı ildə ŞƏKİ*də doğulub.*
DGTYB-nin üzvüdür. "Ömür bir günlük yuxuydu" adlı ilk şeir kitabı 2015-ci ildə gün üzü görüb.

***

Darıxarsan, çarpayında uzanıb,
xəyalında yaxınlaşar uzaqlar.
Küçənizin səkisində dayanıb,
pəncərəni daşa basar uşaqlar...

Daşlar dəyib pəncərənə qayıdar,
daşlar gəlib ürəyinə toxunmaz…
Nə səni atılan daşlar ovudar,
nə də ki, taleyin daşdan oxunmaz.

Udum-udum yanağıma tökülüb,
əriyərsən gözlərimin yaşında…
Gecələri yorğanına bükülüb,
darıxarsan ürəyimin başında.

Səni sevdim ötüşmədi gün ahsız,
bundan belə bu sevgidə yoxam ta…
Yuma mənim günahımı günahsız,
ölsəm gedər iki əlin yaxamda…

GÖZLƏMƏLİYDİM

Artıq az qalmışdı qaranlıq düşə,
yolları görməyə göz işləmirdi.
Ya sən gecikmişdin o gün görüşə,
ya mənim saatım düz işləmirdi.

Eh, necə şirindi o vaxtı həyat,
xoşbəxtlik başımın üstündə idi..!

Bəlkə imtahandı, bəlkə zarafat,
bilmirdim gözlətmək qəsdin nə idi..?

Arada təsəllin yetərdi dada,
yenə də, ürəyə “döz!” deməliydim.
Bir yolmu var idi, canım çıxsa da,
mən axı sevirdim, gözləməliydim...

BƏXT ULDUZUM

Bəxtinə düşən ulduzam,
qopar məni göy üzündən.
Gəl, görüşək gecəyarı,
apar məni göy üzündən.

Dadım şirin ləblərini,
noğul kimi, nabat kimi.
Sinən altda ürək olum,
yaşa məni həyat kimi.

Hicranını qıyma, gülüm,
həsrətin dəli at kimi...
Vurub eşqin qamçısını,
çapar məni göy üzündə.

Bəxtimizi birgə yazan,
səni məndən soruşarmı?
Vüsalına ümüd etsəm,
bu dərd məndən sovuşarmı?

Dünya sonsuz, göylər geniş,
ulduzumuz qovuşarmı?
Bəlkə də, əkiz ulduzum
tapar məni göy üzündə…

KİRİYƏRSƏN, QADASI

Çoxu baxıb uşaq deyər yaşına,
zaman-zaman böyüyərsən, qadası.
Bu həyatdı düşsən ömrün qışına,
ört üstünü üşüyərsən, qadası.

Bu dünyada nə olacaq məramın? –
qoy halala qarışmasın haramın.
Bütöv olsa Yaradana inamın,
su üstündə yeriyərsən, qadası.

Yanmaq üçün çalışarsan, yanarsan.
taleyinlə barışarsan, yanarsan.
Öz içində alışarsan, yanarsan.
öz içinə əriyərsən, qadası...

Neçə yol gedərsən, yol dəyişərsən,
bu dünyanın sonuna yetişərsən,
Öz əksinin tilsiminə düşərsən,
bir gülüşə kiriyərsən, qadası.

TURAL ADIŞİRİN

1990-cı ildə ŞƏKİ*nin Oxud kəndində doğulub. Şeirləri DGTYB-nin "Bölgələrdən səslər", "Səs. Söz. Rəng" toplularında, nüfuzlu dərgilərdə çap edilib. DGTYB-nin Dənətim Kurulunun üzvüdür.*

QAYITSAN

Dalınca qaçdığım, Günəş bildiyim,
sonu yox həsrətin iziymiş demə.
Mən alov bildiyim, atəş bildiyim,
ürəyin dağların buzuymuş demə.

Qayıt ürəyimə yerin boş qalıb,
donmuş duyğuların bəlkə qızındı.
Məhəbbətim sənin, taleyim sənin,
qayğılarım isə özgə qızındı…

Bu yerin cazibə qanunu deyil,
qayıtsan pozula, dünya dağıla…
Qayıt, o qızı da qurtar əzabdan,
Qayıt, bu dəlini gətir ağıla…

Bir dəfə nəyisə bacar həyatda,
çıx mənim adıma sınan vüqarı…
Gəl, doğma ocağa ərisin, gülüm,
qəlbini soyudan inadın qarı…

…
Görüş yerimizdə sənin ilə yox,
indi görüşürəm ümidlərimlə…

TƏBİƏT

Baharda dünyanın toyu başlanar,
bir yaşıl sevgiylə gələr təbiət.

Hər çəmən bir təzə gözəllik gəzər,
nurunu çöllərə ələr təbiət.

Bulağa gedərəm qızlar söz eylər,
yamaclar arxamca baxıb göz eylər;
Yaşmaqlı gəlinə dönər quzeylər,
büllur bulaqlarda gülər təbiət…

Keçərəm dağların göy yaxasından,
gözlərim mürgülər gül qoxusundan;
Qayalar ayılar qış yuxusundan,
yolları çiçəyə bələr təbiət…

Əriyər zirvədə şimşək qorxusu,
gül açar ellərin qönçə arzusu;
Bir gül qoparmağa qorxdum doğrusu,
mən elə bildim ki, bilər təbiət…

NƏ GÖZƏLMİŞ

Zil qara kipriklərin
davası nə gözəlmiş.
Sevginin yaz ətirli,
havası nə gözəlmiş.

Həsrətdən alışmağın,
küsməyin,barışmağın,
Vüsala qovuşmağın,
səfası nə gözəlmiş.

Dərdindən öldüyümün,
əhdinə güldüyümün,
Vəfasız bildiyimin,
vəfası nə gözəlmiş.

Qoy bu yolda közərim,
öz istimdi, öz əlim…
Könül sevən gözəlin,
cəfası nə gözəlmiş.

VAR

Üzümü yaxşıya tərəf tuturam,
Yüz pisin içində bir yaxşı ki var.
Mən niyə bürküdə yaxa yırtıram,
Arandan yuxarı dağ başı ki var.

Demə, həyat qısa, demə ömür kəm,
ürəyin oduyla ömrü ölçürəm…
Gözümün işığı qurtarıb, nə qəm,
dünyanı əks edən göz yaşı ki var…

Kim deyir, diləklər bir yolluq sönür..?
ulduzlu gecələr parlaq görünür;
Nə olsun ömür-gün qüruba dönür,
min-min diləklərin şabaşı ki var.

Var soyuq həyatda isti bucaqlar,
var əbədi yanan odlar-ocaqlar…
Nə olsun ki, məni unudacaqlar,
bu qoca dünyanın yaddaşı ki var..!

TURAL TURAN
Tural Mətləb oğlu Mustafayev
28 oktyabr 1989-cu ildə ŞƏMKİR*in Alabaşlı kəndində doğulub.*
"Mənə bir az o dünyadan danışın" (2010), "Bələksiz qığılcım" (2015)
adlı şeir kitabları gün üzü görüb.
2011-ci ildən DGTYB Məclisinin üzvüdür.
Hazırda hafta.az saytının reportyorudur.

BİZİM DAXMA PAPAQ QANI GÖTÜRMƏZ

Bir də bu uşaqla çıxma qarşıma,
enmə üzsüzlüyün qazmaq dibinə.
Ayıbdı, məni də sizə daşıma,
onsuz da ayağım sizə sarıdı.
Yüz evlik barıtlı közə sarıdı...
Mən necə yığışım başı papaqsız,
qapısı ciyiltili gəlin evinə?!.

Bu yorğun günorta, "novat" adamı,
yemək də cəhənnəm, sən də cəhənnəm…
Görməyə qaçıram o uçuq damı -
yenə bir boşqab sən –
"bayat buğlu" bir xörək...
Səni sevməyə gedirəm,
dədən evinə...
Eyvanımıza zillənən zədən evinə…

...Üzüyü lax barmaqlı gəlin,
oymaqların söz çanağı,
uşaq qonaqlı gəlin,
Anasız, öksüz gəlin,
"dənciyi" yüksüz gəlin,
Anamın tikdiyi o güllü yorğan,
nə örtməz,

nə üşütməz, yanı küçüklü gəlini.
Apardığı cehizindən ağır yüklü gəlini...

İki adamlıqdı,
dörd nəfərlik deyil o,
bircə mənim bədənimə dəyib o...

Bizim daxma papaq qanı götürməz,
bu bıçağı paslı qın da kiritməz.
Uzaq eylə komamızdan yelini...
bir də bu uşaqla çıxma qarşıma;
Papağım bir ölçü boşdu başıma...

BƏZƏN QIRAT KİMİ GÖZ İŞIĞI DÜŞMƏYƏN TÖVLƏYƏ BAĞLANMAQ İSTƏRSƏN…

Saçların misra-misra ağarırmı yenə?
Bətnində boş qəbir,
Yataq otağında sinədaşsız beşiyi görüncə...
Üşüyürsənmi bu axşam da,
Bir qarabuğdayı kişi,
Bir sarışın qızcığazı geyirsənmi əyninə?!

Otağının soyuq gələn, dişlərini qıcırdadan yerlərinə
Bir ehtiraslıq ağ-qara şəkilləri hörüncə –
və yaxud bir şəkil belə tapmayıb,
o deşiklərdən özünü asınca?..
Söndür gözlərindəki bir cüt işığı,
Arxa çevir, ömür alan ilğımlara...
Bir az qımış, bir az işılda, bir az isin...
Qış sonunda qəfil doğan sazaqlı Günəş kimi...
Sən qadınsan axı,
bəzən Qırat kimi
göz işığı düşməyən qaranlıq bir tövləyə
bağlanmaq istərsən,

uçmaq üçün əclaflıqlardan
xəyalların sənə təslim olduğu yüksəyə...
Udqunarsan, udqunarsan, üşüyərsən...
Bir də... “keçəl və qırmızısaqqal bir xədim kişi olsa”
deyə düşünərsən.
Səni bu qırx gün ərzində bəsləməyə...

Sənə baxa bilərəm, əgər istəsən –
təki, uç buradan.
…Mən kişiyəm, alçaqların öldürdüyü,
…23 yaşında sarışın kənd qızının “axtaladığı”
kipkirli bir Tanrıköy uşağı...
Sənsə, qadınsan, uğurlu bir misrada
Heca-heca ölən, əriyən…
Bir çay qaşığında
sarıyla qaranın nəmlənmiş qarışığı…

Söndür, söndür gözlərində işığı,
…Get,
ilim ayağı it bu səhralardan,
Özünü qarabuğdayı bir nəfəsləcə
mumyala...

ÜMİD NƏCCARİ
TƏBRİZ

AĞLAYIRSAN!

Yaponiyada Sunami səsimi boğur,
Üzülürsən.
Filipinlərdə dəprəm əzir ruhumu
və əsəblənirsən!
Suriyada bombalar partladır ürəyimi,
sonra da küsürsən!
Türkiyədə qiyam olur
zəng etmirsəm...
Qarabağda varlığım darıxır,
Ge...di...rəm..! deyirsən
Gedirsən...
Çində duvarlar boylanır,
başqasıyla evlənirsən.
Təbrizdə bir uşaq
xiyabanda səsləyir:
Qəzet... Qəzet...
Bugünkü xəbər
Sevgi Dünyasını dəyişdi...!!!

SƏNDƏN UZAQ…

Gözlərinin Orucunu tutmaq
Səndən uzaq...
Əllərini daşdan yonub,
üstünə alın qoymaq...
Şəklinin Kəbəsinə yeddi dəfə dolanmaq,
Sən gedən yola üz tutub,
Sevgi “rükət”i qılmaq...
Adını bir-bir

təsbeh dənələrində çevirmək...
Heey, sevgi peygəmbərim!
Göz yaşlarımla, dəstəmaz almaqdır
səndən uzaq peşəm...
Heey, möcüzə gözlüm!
Hansı qiblədə Tanrıyla danışırsan?
Hansı dərgahda ümidlərinə abid olubsan?
Kimdir o mələk ki qılığına girmisən?
Tapıl, gəl
və tapdalanan ruhuma,
təp-təzə Məsih nəfəsi pülə.
Səndən uzaq, elə olmazsa
bu canımı
ehsan verəcəyəm torpaqlara...

ÖZ HALIMA BURAX…

Boş ver
ağlımdakı xəyalımdan əl çək,
Səssizcə ölüm günahlarımda
susdur qəlbimi ki...
Köşələrdə dizlərimi qucaqladım
Öz-özümlə lənət etdim köhnə izləri.
Lənət etdim o gözəl günləri,
beləcə içində insansızlara...
Kim bilər.?!
Sonun bir film kimi bitər,
Cənazəm tapılmaz..!
Ey, gözü yaşlı anam...
Sil göz yaşlarını, məni burax,
məzarda doğulub, qarnında ölüm!
Öz halıma burax...
ümidli sabahlara inad..!
At ətəyindən qızıl gülləri,

ulduzların gözündən düşməsin.
Bir taxçadan düşən güldan kimi
düşdüm yerlərə...
Torpaqlarım avarə
güllərim yetim qaldı!
Buraxsana...
Burax, öz halıma, Ana..!

***

Anası əlini buraxıb,
itkindir şəhərin ortasında bu şeir.
Yeriyir itkinliyi,
ağlayır sürgünlüyü,
Gözündən qürbət süzdürür.
Şəmsini arayır Mövlana şeirim!
Vurub calayır kitabları hovuza.
Bu şeirin sənədin
"fatura"sını vur mənim adıma...
Kəlmələrini heykəl yapdır dördyolda,
görünsün yalqızlığım.
Qaldırımlarına ağ çizgidir qafiyələrim,
kinayələrim yumruq izidir divarlara!
Bu qədər avara kəlmə içində
Allahlıq edir SƏN kəlməsi;
Küfr edir MƏN kəlməsi.
Əlinə qurban,
bük bizi,
səssizcə susaq kitablar arasında...

***

Burda oturmuşdum!
Və göy üzünü
gözlərimin giləsinə görüşdürürdüm.
Oturmuşdum!
Kəlmələrlə keçmişimi,

ağacların gövdəsinə oxuyurdum
Bulud olduğum,
arzularımın körpüsündən keçirdi;
Oxuyurdum hər nə varsa,
qanad adında...
Qanada ad verən Allaha...
Qanadların altındakı dünyaya
hər nə varsa, bu eldə,
qanlı qanada bənzəyir.
Hər nə varsa bu evdə
lələk yastığıdır.
Burda oturmuşdum,
burda heç nə yoxuydu..!
Sadəcə yuvasını yel dağıdan
bir GÖYƏRÇİN özüylə danışırdı...

***

Şair kağızları qaralayır,
aclıqdan, qaranlıqdan yazır...
Yönətmən aktyorlara rol verir:
birisinə “JanValJan”,
birisinə “Kozetta”...
Rəssam yoxsulluğu fıçasında yaxır,
diktator sülhdən danışır;
İnsan Haqları İdarəsi insanlıqdan...
Amma
amma yenə o uşaq ayaq yalın gəzir Təbrizdə...
Yenə o qız dördyolda çiçək satır.
Yenə.....
və o qadın böyrəyini satdı dün gecə...

MURAT YAŞAR ERBİLLİ

İRAQın ƏRBİL şəhəri*ndə doğulub.*
Şeir və hoyratları "Türkmaneli" qəzeti, "Qardaşlıq" bülleteni və "Ərbildən Hoyratlar" kitabında yayınlanıb. Ünlü xalq sənətçisi Şövkət Səidin (Mişko) nəvəsi, ünlü səs sənətçisi Yaşar Şövkətin oğlu olan Murat, gözəl səsli bir yıldızı olaraq da, tanınır.

HOYRATLAR

Bağla diyer,
Dost yaram bağla diyer.
Kanımnan bağ suvarram,
Koy dolsun bağla diyar…

Odu bayram,
Yandırdı odu bayram.
Bütün Türkman bir olsun,
Bizimçin odu bayram..!

Gülü yığ,
Gir bahçeye, gülü yığ.
Mert kanıydan gügeren,
Mert bağın mert gülüyüğ…

Üç payı sen,
İstediv üç payı sen.
Kalbimi dörde bölsev,
İçinde üç payı sen…

Aşk azarım,
Çok attım aşka zarım…
Dert çekmeyen kan ağlar,
Eşitse aşk azarım…

İste diyar,
İste şan, iste diyar..!
Tek varım canımıydı,
Onu da istedi yar…

Bir hayal diyer,
Bir diş, bir hayal diyer.
Bizim bu hoş sevdamız,
Sanki bir hayaldi, yar…

İPEK NEŞET DEMİRCİ

1989 yılında KERKÜK*'te doğdu.*
Türkman edebiyatında yeni kuşağın yeni temsilcilerindendir. Kerkük'te düzenlenen şiir şölenlerinden milli hoyratlarıyla edebiyatseverlerin beğenisini kazanan İpek, gelecekte adını altın harflerle Türkman kadın edebiyatçıları kervanına yazdıracaktır, deye inanıyoruz.

***

Bele biz…
Hiç sevmeriğ bele biz.
Kerkükçun can verriğ,
Milletçin kan verriğ,
Alışmışığ bele biz..!

Şefedır aşıv Kerkük,
Altundur daşıv Kerkük.
Kahramandır milletiv,
Yüksektir başıv Kerkük..!

Hasta dal yaprak döktü,
Boynunu burup büktü.
Türkmanlar menim gözüm,
Göz ışığım Kerkük'tü…

Asiliğ biz kökte
Binde bir çıksa bük te
Altın kimin insanlar
Çoktu Türkmen Kerkük'te

Kerkük'ün musallası,
Yanar sönmez lalası.
Kerkük'ten ayrı kalmaz,
Ne Türkman, ne balası.

Kerkük yüksek bir dağdı,
Dört etrafı gül bağdı.
Altı devlet sahibi,
Türkman'ın gözü ağdı.

Dostlarıma ok olmam,
Men Türkmanam, yok olmam!
Türkmanın hoyratından,
Hiçbir vahit toh olmam.

İÇƏRİK

*Ön Söz (*dr. Cavanşir FEYZİYEV*)* .....

MƏRUZƏLƏR

Zeynəb TƏK (Türkiyə) .....
Şohista ARTİKOVA (Özbəkistan) .....
Sayat KAMŞIGER (Qazaxıstan) .....
Kaliça JAKIP (Qırğız Respublikası) .....
Aygiz BAYMUXAMMET (Başqurdistan) .....
Ç.Z.ÇETİN, R.MİNNULLİN, R.QATAŞ (Tatarıstan) .....
Ümid NƏCCARİ (Təbriz) .....
Təranə TURAN RƏHİMLİ .....

ŞEİR ÇƏLƏNGİ

ALTAY .....

Mergen ÇELTANOV .....
Lazar KOKİŞEV .....

BAŞQURDİSTAN .....

Uraniya VAXİTOVA .....
Zarina BAGİŞAYEVA .....

KRIM .....

Seyran SÜLEYMAN .....

ÇUVAŞISTAN .....

Dmirtiy MOİSEEV .....

QAZAXISTAN .....

Sayat KAMŞIGER .....
Kazıbek ŞAXANOV .....
Kuvanış MEDEVBAY .....
Kuralay OMAR .....

QIRĞIZ RESPUBLİKASI .....

Altınbek İSMAYİL .....
Narsuluu QURQUBAY .....
Kaliça JAKIP .....

ƏFQANISTAN .....

Aminullah NAİL HANGELDİ .....
Firuzə ORGANC .....
Nurəddin SAMEDOGLU .....

QAQAUZ YERİ .....

Alla BÜÜK .....
Elena MOKANU .....
Oksana KOBAN .....
Galina SİRKELİ (KRİSTİOGLO) .....
Alexandra YULARJİ (KRİSTOVA) .....
Mihail KÜRKÇÜ .....
Nikolay KADİN .....
Tatyana DRAGNEVA .....
Tatyana KÖSÄ .....

KUMUK – DAĞISTAN .....

Zariyat UMAY .....

TATARISTAN .....

Lenar ŞEYX .....
Rıfat SALAH .....
Fənil GİLAJİ .....
Yıldız MİNNULLİNA .....
Leniza VƏLİ .....
Bulat İBRAHİM .....
Alyona KƏRİM .....
Aydar CAMAL .....
Elvira HADİYEVA .....
FİDAİL .....
Gülnaz ƏZİZ .....
Gülnaz VƏLİ .....
Gülnur QURBAN .....
Leysan FƏTHƏTDİN .....
Rüzəl ƏHMƏDİYEV .....

TÜRKİYƏ .....

Selçuk DÜZGÜN .....
Talat ÖZƏR .....
Musab KIRCA .....
Feryat EROL .....

AZƏRBAYCAN .....

Nilufər ŞIXLI .....
Gülsadə İBRAHİMLİ .....
Lamiyə İSAZADƏ .....
Vasif ZÖHRABOĞLU .....
Tural ADIŞİRİN .....
Tural TURAN .....

Ümid NƏCCARİ .....

TÜRKMANELİ – İRAQ .....

Murat YAŞAR ERBİLLİ .....
İpek Neşet DEMİRCİ .....

Dünya Gənc Türk Yazarlar Birliyi
www.dgtyb.org, www.bizimyazi.com

ŞEİR ÇƏLƏNGİ

(Türk Dünyası (yeni nəsil) şeir antologiyası)

3 cilddə. **II cild**

Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurasının
“QHT Nəşriyyatı” MMC-də çap edilmişdir.
Çapa imzalanmışdır: 05.09.2016
Tiraj: 300 / Sifariş: 059
Format: 64x90, 1/16, 216 səh.

"QHT NƏŞRİYYATI"
Bakı şəh., Bakıxanov qəs.,Telman küç.,6
E-mail:qhtnesriyyati@gmail.com
Tel.: (+99412) 429 87 85
www.nesriyyat.com